

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Dubayda COP-28 çərçivəsində iqlim dəyişiklikləri üzrə müzakirələrdə iştirak edib**



4

SƏS

№ 222 (6905)

5 dekabr 2023-cü il.
Qiymәti 60 qәpik

# Azərbaycan ilə BƏƏ arasında dostluq və qardaşlığa əsaslanan əlaqələr




2

*Prezident İlham Əliyev: "Qarşılıqlı etimad və dəstəyə əsaslanan dövlətlərarası əlaqələrimiz gündən-günə daha da möhkəmlənir"*

# Amorf təşkilatdan POPULİST, DEKLORATİV BƏYANAT

*ATƏT adlı beynəlxalq qurum, yəni Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı yenə də Cənubi Qafqaza burnunu soxmağa çalışır və mənasız olmasına baxmayaraq, bu istiqamətdə səy göstərməkdədir. Bu beynəlxalq qurumun hazırkı sədri və Şimali Makedoniyanın xarici işlər naziri Bujar Osmani Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanmasına yönəlmiş dialoqun tərəfdarı olduğunu bildirib.*




9

**"Azərbaycan ilə Türkiyə hər zaman bir-birinin yanındadır"**



5

**Ana Torpaq təhlükədə: ərzaq böhranı qaçılmazdır**



15

**AXCP repressiya mühitində idarə olunur**



14

**Könüllülük davamlı inkişaf yolunda**



7

**Xarici ölkədə təhsil alanların diplomları hansı hallarda tanınmır?**



16





# “Siyasi münasibətlərimiz yüksək səviyyədədir”

## Prezident İlham Əliyev Malayziyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

***Prezident İlham Əliyev dekabrın 4-də Malayziyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ahmad Kamrizamil Bin Mohd Rzanın etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi. Ahmad Kamrizamil Bin Mohd Rza Malayziyanın Kralı Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni əl-Mərhum Sultan Hacı Əhməd Şah əl-Mustain Billahın və Malayziyanın Baş naziri Ənvər İbrahimin salamlarını dövlətimizin başçısına çatdırdı.***

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Malayziyanın Kralına və Baş nazirinə çatdırmağı xahiş etdi. Siyasi münasibətlərimizin yüksək səviyyədə olduğunu deyən dövlətimizin başçısı əlaqələrimizin daha da fəallaşdırılmasının və əməkdaşlığımızın yeni istiqamətlərinin, o cümlədən investisiya, qarşılıqlı ticarət, humanitar sahələrdə müəyyənləşdirilməsinin zəruriliyini bildirdi.

Beynəlxalq institutlar çərçivəsində əməkdaşlığımızdan məmnunluğunu ifadə edən Prezident İlham Əliyev BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatında ölkələrimizin bir-birini dəstəkləməsinin önəmini vurğuladı və bunu qardaşlıq əlaqələrimizin yaxşı nümunəsi kimi dəyərləndirdi.

Dövlətimizin başçısı, eyni zamanda, iqtisadi əlaqələrin genişləndirilməsinin də vacibliyinə toxunaraq qarşıdan gələn illərdə nazirlər, hökumət nümayəndələri, biznes dairələri arasında qarşılıqlı səfərlərin təşkilinin bu işə xidmət edə biləcəyini dedi. Prezident İlham Əliyev səfirin Azərbaycanda fəaliyyəti dövründə bu istiqamətdə səylərini əsirgəməyəcəyini qeyd edərək ona işində uğurlar arzuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən səfir ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi, turizm, ticarət və digər sahələrdə əlaqələrin möhkəmlənəcəyinə ümidvarlığını ifadə etdi. Diplomat bildirdi ki, Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycanda səfir təyin olunmasından şərəf hissi duyur. O, dövlətimizin başçısının çox xarizmatik və uzaqgörən bir Lider olduğunu vurğuladı.

Ahmad Kamrizamil Bin Mohd Rza əlaqələrimizin genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirdi. Söhbət zamanı ölkələrimiz arasında turizm sahəsində əməkdaşlıq, mədəni-humanitar münasibətlərin genişləndirilməsi məsələləri müzakirə olundu, birbaşa aviareyslərin həyata keçirilməsi, Azərbaycan-Malayziya iqtisadi əlaqələrinin genişləndirilməsi üçün hökumətlərarası komissiyanın yaradılması məsələlərinə toxunuldu.

# İtaliya nəşri: “Təəssüf ki, Avropada erməni millətçiliyini və revanşizmini qızışdıranlar var”

***İtaliyanın xarici işlər nazirinin müavini Edmondo Çirielli ölkəsinin aparıcı kütləvi informasiya vasitələrindən olan “Formiche” qəzetinə Cənubi Qafqazda baş verən proseslərlə bağlı müsahibə verib.***

AZƏRTAC xəbər verir ki, Avropa parlamentinin İtaliyanın müxalifət “5 Ulduz hərəkatı” partiyasından üzvü Fabio Massimo Kastaldonun Avropa İttifaqı və Avropa Parlamentinin rəsmilərinə ünvanlanmış ədalətsiz və əsassız çağırışlarına diqqət çəkən nazir müavini bunun uyğunsuz bir hərəkət olduğunu və sülh istiqamətində indiyədək əldə edilən razılaşmalarına xələl gətirə biləcəyini vurğulayıb. Qeyd edilib ki, bu, eyni zamanda, həm tarix, həm də beynəlxalq münasibətlər nöqteyi-nəzərindən az məlum olan hadisələrlə əlaqədar fəaliyyətə keçmək və ya birbaşa müdaxilə etmək üçün ən pis üsuldur. O, həmçinin Avropanın və İtaliyanın Azərbaycan ilə Ermənistan arasında yumşalma mühiti yaratmaq üçün çalışmalı olduqlarını bildirib.

Avrodeputat F.M.Kastaldonun lokal xarakterli antiterror tədbirləri ilə bağlı “azərbaycanlıların hücumu” iddialarına münasibətdə E.Çirielli diqqətə çatdırıb ki, belə bir iddianı irəli sürə biləcək nə siyasi, nə də hərbi xarakterli heç bir qiymətləndirmə yoxdur, bu, doğrudan da dəlilikdir. O əlavə edib ki, Azərbaycan heç vaxt Ermənistan ərazisinə qarşı əməliyyat həyata keçirməyib və bu, BMT-nin müstəqil komissiyalarının təsdiqlədiyi məlum faktdır. Bildirilib ki, Qarabağdakı insanları köçə Azərbaycan qoşunları yox, bölgədə repressiyaları həyata keçirən separatçılar təhrik ediblər və bunda separatçıların məqsədi gərginlik üçün əlavə səbəb yaratmaq olub.

Bakının dəfələrlə sülh çağırışları etdiyini xatırladan E.Çirielli diqqətə çatdırıb ki, İkinci Qarabağ müharibəsində Prezident İlham Əliyev döyüş meydanında qalib gəldiyinə baxmayaraq, Azərbaycan əməliyyatları dayandırdı və bununla da məsələnin sülh yolu ilə həllini tapmağa imkan verdi, habelə son üç il ərzində problemi danışıqlar yolu ilə həll etməyə çalışdı.

Nazir müavini, həmçinin əlavə edib: “Təəssüf ki, Avropada hemişə erməni revanşizmini və erməni millətçiliyini qızışdıran, obyektiv olaraq beynəlxalq hüquqda belə nəzərdə tutulmayan məsələlərdə İrəvanı çaşdıranlar oldu”.

E.Çirielli vurğulayıb ki, Prezident İlham Əliyev çox praqmatik insandır və Azərbaycan beynəlxalq hüquqazidd olan hər hansı bir addımı qəti şəkildə istisna edir.

Nazir müavini qeyd edib ki, N.Paşinyan Ermənistanın rəsmiləri arasında BMT-nin müxtəlif qətnamələrinin dəfələrlə təsdiq etdiyi kimi, Azərbaycanın ərazi bütövlüyünü tanıyan ilk şəxsdir. Ondan əvvəlki Ermənistan hökumətləri heç vaxt belə mövqe tutmayıb, lakin hələ də Ermənistanda qatı millətçi olan hakim sinif, Qafqazda sabitliyi pozmaq məqsədi daşıyan qüvvələr, Ermənistanın hüdudlarından kənarda yaşayan, problemlərdən və mövcud vəziyyətdən həqiqətən xəbərsiz olan güclü erməni icmaları var. Onlar həm də insanların daha asan qəbul etdikləri səbəblərə istinad mənbəyi kimi baxırlar, çünki onlar erməni diasporunun qatı millətçi və şovinist baxışlara malik övladları və nəsilləridir.

O əlavə edib ki, ötən əsrin əvvəllərində ermənilərə münasibətdə baş verənlərlə azərbaycanlıların heç bir əlaqəsi yoxdur, buna görə azərbaycanlılar heç bir məsuliyyət daşımırlar. Onlar, sadəcə, müsəlman olduqları üçün başqalarının günahlarına görə cavab verə bilməzlər.




“Üstəlik, biz yaxşı bilirik ki, Azərbaycan müsəlman dünyasının ən dünyəvi və tolerant ölkələrindən biridir. Bu, onun fərqləndirici xüsusiyyətidir. Odur ki, dindən xalqlar arasında münaqişə elementi kimi istifadə etməməyə çalışaq”, - deyə E.Çirielli bildirib.

Müəllif vurğulayıb ki, Ermənistan tərəfindən aparılmış müharibə, 30 il davam etmiş işğal beynəlxalq hüququ açıq şəkildə pozub və Ermənistan da bunu dolayı yolla qəbul edib. Halbuki Ermənistan gərginliyi başqa cür və daha əlverişli yolla aradan qaldıra bilərdi. Lakin Ermənistan hökumətlərinin düşüncəsizliyi BMT qətnamələrinə əsaslanaraq Azərbaycanın bu məsələni özünün həll etməsinə gətirib çıxardı.

Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasında İtaliyanın diplomatik roluna gəldikdə, E.Çirielli əminliyini ifadə edib ki, ölkəsi bu işdə mühüm rol oynaya bilər. “Amma azərbaycanlılar ermənilərə qarşı güc tətbiq edirmişlər kimi göstərilməyə davam olunsa, bu, sülhə kömək etməyəcək. Ən yaxşı yol Gürcüstanın bir müddətdir irəli sürdüyü kimi, normallaşma prosesinə başlamaqdır. Xristian ölkəsi olmasına baxmayaraq, Tbilisi, eyni zamanda, Azərbaycan üçün mühüm tərəfdaşdır və İtaliya kimi, böyük vasitəçilik potensialına malikdir. Çünki o, Azərbaycanın hüquqi və beynəlxalq maraqlarını həmişə müdafiə edib. Beynəlxalq hüququn və BMT prinsiplərinin müdafiəçisi olan İtaliyanın bu xətti dəstəkləməməsi qəribə görünərdi”, - deyə E.Çirielli fikirlərini tamamlayıb.

# Azərbaycan ilə BƏƏ arasında dostluq və qardaşlığa əsaslanan əlaqələr



*Prezident İlham Əliyev: “Qarşılıqlı etimad və dəstəyə əsaslanan dövlətlərarası əlaqələrimiz gündən-günə daha da möhkəmlənir”*








Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və dövlətçilik mənafelərinin qorunmasında ölkənin zəngin iqtisadi potensialı və əlverişli geosiyasi mövqeyi müstəsnadır. Əlbəttə ki, bu, milli dövlətçilik maraqlarına cavab verən səmərəli və məqsədyönlü xarici siyasət kursunun həyata keçirilməsi üçün ilkin əlverişli zəmin yaradır.Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra diplomatik münasibətlərin yaradılması onun dünya birliyinə sistemli surətdə inteqrasiyasına geniş yol açdı. İkitərəfli siyasi münasibətlərin qurulması siyasi-iqtisadi və mədəni əlaqələrin inkişafına əlverişli zəmin yaratmış oldu. Müstəqil dövlət kimi Azərbaycanın dünya dövlətləri, təşkilatları ilə əməkdaşlığı və dostluq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın qurulmasına və davamlı olmasına təsirini göstərir. Mövcud münasibətlər çoxşaxəli, qarşılıqlı maraq əsasında qurulub, əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilib. Ölkəmizin ərəb dövlətləri ilə münasibətləri də yeni inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə məlum işgüzar səfəri bu əlaqələrin müasir dövrümüzdə yeni inkişaf mərhələsində olduğunun təzahürü idi. Azərbaycanın ərəb dünyası ilə tarixi-mədəni bağlılığı yaradan sənədlər mövcuddur. Azərbaycan müstəqillik qazandıqdan sonra ölkələrimiz arasında diplomatik əlaqələr yaradılıb. İki ölkə arasında səfirlik səviyyəsində rəsmi münasibətlər qurulub. Belə ki, Azərbaycanın 1997-ci il tarixli Qanunu ilə Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində Səfirliyi təsis edilib. Həmin səfirlik 2001-ci il 16 iyun tarixindən etibarən BƏƏ-nin paytaxtı Əbu-Dabi şəhərində fəaliyyət göstərir. Bundan başqa 14 mart 2012-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Dubay şəhərində Baş Konsulluq təsis edilib. 2005-ci ildə Azərbaycan ilə Ərəb Dövlətləri Liqası arasında Anlaşma Memorandumu imzalanması, 2007-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev Misir Ərəb Respublikasına rəsmi səfəri və s. bu ikitərəfli əməkdaşlığın inkişafına öz töhfəsini verir.

## ARAMIZDAKI FƏAL SİYASİ DİALOQ QARŞILIQLI FAYDALI ƏMƏKDAŞLIĞIMIZIN İNKİŞAFINDA MÜHÜM ROL OYNAYIR

“Dini və mədəni köklərlə bir-birinə bağlı olan Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etməsi məmnunluq doğurur. Qarşılıqlı etimad və dəstəyə əsaslanan dövlətlərarası əlaqələrimiz gündən-günə daha da möhkəmlənir, tərəfdaşlığımızın əhatə dairəsi genişlənir”. Bu fikirləri Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı – Müstəqillik Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyana ünvanladığı təbrikində bildirib. «Aramızdakı fəal siyasi dialoq qarşılıqlı faydalı əməkdaşlığımızın inkişafında mühüm rol oynayır. Ölkələrimizin dostluq ənənələrinin qorunub saxlanmasında, ikitərəfli münasibətlərimizin bugünkü səviyyəyə yüksəlməsində Sizin böyük əməyiniz vardır» - deyə bildirən dövlət başçısı qeyd edib ki, biz dost ölkə və etibarlı tərəfdaşımız olan Birləşmiş Ərəb Əmirlikləri ilə əlaqələrimizin dərinləşməsinə xüsusi əhəmiyyət verir, birgə fəaliyyətimizi yeni məzmunla zənginləşdirmək əzmindəyik: «Bu yaxınlarda ölkənizin “Masdar” şirkəti tərəfindən tikilən və regionda ən böyük günəş elektrik stansiyası olan Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılışı qardaşlıq əlaqələrimizin növbəti bariz təzahürüdür. Əminəm ki, möhkəm təməllər üzərində qurulmuş ikitərəfli münasibətlərimiz və səmərəli, çoxşaxəli əməkdaşlığımız xalqlarımızın mənafeləri naminə bundan sonra da birgə səylərimizlə uğurla inkişaf etməyə və güclənməyə davam edəcəkdir».Mövcud əlaqələr mövcud münasibətlərin davamlığını, strateji əhəmiyyət kəsb etdiyini göstərir. Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28 çərçivəsində təşkil olunan Dünya İqlim Fəaliyyəti Sammitində iştirak etmək üçün Birləşmiş Ərəb Əmirliklərində səfərdə olub. Səfər çərçivəsində Dubay şəhərində Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşüb. Görüşdə Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında dostluq və qardaşlığa əsaslanan əlaqələrin hərtərəfli inkişafından məmnunluq ifadə olunub

## İLK GÜNƏŞ ELEKTRİK STANSİYASI

Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkətinin sərmayəsi ilə 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının təsis edilməsi və onun açılış mərasimində Birləşmiş Ərəb Əmirliklərinin 4 nazirinin iştirakı ölkələrimiz arasında qardaşlığın bariz nümunəsi kimi qiymətləndirilib. Məlumdur ki, 2021-ci il aprelin 6-da Azərbaycanın Energetika Nazirliyi, ”AzərEnerji” ASC və Birləşmiş Ərəb Əmirliklərinin ”Masdar” şirkəti arasında investisiya, enerji alqı-satqısı və ötürücü şəbəkəyə qoşulma ilə bağlı müqavilələr imzalanıb. Stansiyanın təməlqoyma mərasimi isə 2022-ci il martın 15-də ”Gülüstan” sarayında Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə qoyulub. Qaradağ Günəş Elektrik Stansiyası Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasıdır. Stansiya 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş elektrik stansiyasıdır. Məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Azərbaycan Hökuməti ilə Birləşmiş Ərəb Əmirliklərinin ”Masdar” şirkəti arasında sənədlərin imzalanması əlaqələrin davamlığına əsaslanır. Belə ki, ”Azərbaycan Respublikası Hökuməti ilə ”Abu Dhabi Future Energy Company – Masdar” şirkəti arasında Azərbaycan Respublikasının Neftçala rayonunun Bankə qəsəbəsində Günəş Elektrik Stansiyası layihəsi ilə bağlı İnvestisiya müqaviləsi”, ”Azərbaycan Respublikası Hökuməti ilə “Abu Dhabi Future Energy Company – Masdar” şirkəti arasında Azərbaycan Respublikasının Biləsuvar rayonunda Günəş Elektrik Stansiyası layihəsi ilə bağlı İnvestisiya müqaviləsi” və ”Azərbaycan Respublikası Hökuməti ilə ”Abu Dhabi Future Energy Company – Masdar” şirkəti arasında Azərbaycan Respublikasının Abşeron-Qaradağ rayonunda quruda külək enerjisi layihəsi ilə bağlı İnvestisiya müqaviləsi” imzalanıbdır.

## TƏRƏFDAŞLIĞIN BÖYÜK PERSPEKTİVLƏRİ

Görüş zamanı Birləşmiş Ərəb Əmirliklərindən olan tərəfdaşlarla imzalanmış sazişlərə uyğun olaraq bərpaolunan enerjinin 10 qiqavata çatdırılacağı vurğulanıb. Söhbət zamanı ölkələrimiz arasında yaradılmış birgə investisiya fondunun əhəmiyyəti qeyd edilib, bunun iqtisadi-ticari əlaqələrimizin və qarşılıqlı sərmayə sahəsində əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyi bildirilib. SOCAR ilə Əbu-Dabi Milli Neft Şirkəti – ADNOC arasında uğurlu əməkdaşlığın və birgə layihələrdə iştirakın əhəmiyyəti vurğulanıb.Birləşmiş Ərəb Əmirliklərinin “AD Ports Group” şirkətinin Azərbaycan ilə limanlararası, gəmiçilik, nəqliyyat, logistika sahələrində əməkdaşlıq məsələlərinə toxunulub, Orta Dəhliz istiqamətində nəqliyyat-logistika sahəsində tərəfdaşlığın böyük perspektivlərinin olduğu qeyd edilib. Azərbaycan ilə Birləşmiş Ərəb Əmirliklərinin siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə sıx əməkdaşlıq həyata keçirir. Bu əlaqələrin daha da genişləndirilməsində mühüm əhəmiyyət kəsb edir. İki ölkə arasında münasibətlər bir çox sahədə stratrji əhəmiyyət daşıyır. Bu gün Azərbaycan nəinki öz enerji tələbatlarını təmin edir, o cümlədən xam nefti, neft məhsullarını, təbii qazı, neft-kimya məhsullarını və elektrik enerjisini ixrac edir. ”Masdar” ilə aparılan əməkdaşlıq Azərbaycanı yaşıl enerjinin çox mühüm ixrac mənbəyinə çevirəcəkdir.

Son illər Azərbaycanla BƏƏ arasında hərtərəfli əlaqələrin genişlənməsi, xüsusilə də nəhəng enerji layihələrinin reallaşdırılması münasibətləri yeni mərhələyə çıxarıb.

***Zümrüd BAYRAMOVA***



*Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən COP-28 çərçivəsində dekabrın 4-də Ümumi Qadınlar Birliyinin sədri Şeyxa Fatimə Bint Mübarəkin himayəsi altında "Qadınlar tərəqqiyə liderlik edir: Su və Dayanıqlı İnkişaf Məqsədləri" mövzusunda panel iclas təşkil olunub.*



# "Bu istiqamətdə aktiv fəaliyyət göstərmək Azərbaycan hökuməti üçün prioritet məsələdir"

## *Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Dubayda COP-28 çərçivəsində iqlim dəyişiklikləri üzrə müzakirələrdə iştirak edib*

Birləşmiş Millətlər Təşkilatının (BMT), Ümumi Qadınlar Birliyinin və İsveçrə Qadınlar və Gücləndirmə Assosiasiyasının təşkilatçılığı ilə keçirilən iclasda Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, BMT-nin Cenevrə bölməsinin baş direktoru Tatyana Valovaya, Birləşmiş Ərəb Əmirliklərinin iqlim dəyişikliyi və ətraf mühit naziri





Mariam Almheiri iştirak ediblər.

İclasda bildirilib ki, iştirakçılar BMT Baş Assambleyasının təhlükəsiz və təmiz içməli su hüququnu başlıca insan hüquqlarından biri kimi təsbit edən qətnaməsinə uyğun olaraq, su idarəçiliyi ilə bağlı aktual problemi həll etmək, onun icmalara və ekosistemlərə təsirlərini araşdırmağa yönəlmiş səyləri əlaqələndirməyə və gücləndirməyə çalışacaqlar.

Müzakirələrdə çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva deyib: "Biz görürük ki, iqlim dəyişikliklərinə görə Kür, Samur, Araz çaylarında suyun səviyyəsi aşağı düşür. Volqa çayında suyun səviyyəsi enir və bu, Xəzər dənizinə də təsir edir. Biz ötən 7-8 ildə Azərbaycanda quraqlığa şahid olmuşuq və bu da aqrar sahəyə təsirini göstərir. Hökumət ölkədə 10 su rezervuarı yaratmağı planlaşdırır və bununla problem həll olunacaq. Digər məsələ isə odur ki, təəssüf, biz ölkəmizin ərazisinin 20 faizinin 30 il ərzində işğal altında qaldığı dövrdə həmin torpaqlardakı su ehtiyatlarımızdan məhrum olmuşduq".

Çıxışlar zamanı su problemlərinin həlli ilə bağlı qarşılıqlı məlumatlılığın artırılmasının, davamlı su idarəçiliyi üçün inklüziv və məlumatlı həllərin təşviq edilməsinin, Dayanıqlı İnkişaf Məqsədlərinə və gender bərabərliyinə nail olmağın əhəmiyyəti xüsusi vurğulanıb. Panel iştirakçıları, həmçinin BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədinə nail olunmasını sürətləndirmək baxımından dünya miqyasında icmaların rifahına, sağlamlığına və bərabərliyinə müsbət təsir göstərə biləcək daha yaxşı su idarəçiliyi üçün qabaqcıl təcrübə və mümkün həll mexanizmlərini, eləcə də iqlim məsələlərini müzakirə ediblər.

Xəlifə Universitetinin professoru Mariam Rashed Al Shehihi bildirib: "Biz BƏƏ-də su ilə bağlı vəziyyət haqqında ən yeni məlumata sahib olmalıyıq. Bununla da problemləri daha yaxşı anlayıb su ehtiyatlarının daha səmərəli idarə edilməsinə nail ola bilərik. Biz anlamalıyıq ki, məsələn, BƏƏ-də hansı sahələrdə nə qədər su sərf edilir. Bununla da biz problemləri, indiki və gələcəkdə yarana biləcək vəziyyəti daha yaxşı başa düşə bilərik".

Panel iclasından sonra iştirakçılar COP28 çərçivəsində fəaliyyət göstərən Azərbaycan pavilyonunda olublar. Məlumat verilib ki, dekabrın 12-dək davam edəcək COP28 çərçivəsində Heydər Əliyev Fondu, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə yaradılan milli pavilyon "İqlim dayanıqlılığı üçün davamlı həlləri rəhbər tutaq" mövzusunu əhatə edir.

Pavilyonun konsepsiyası Azərbaycanın zəngin flora və faunası üzərində qurulub. İnteraktiv formatda qurulan pavilyonda ölkəmizin iqlim dəyişikliyi sahəsində siyasəti, atmosferə atılan istixana qazlarının azaldılması istiqamətində Azərbaycan hökumətinin tədbirləri, mitiqasiya və adaptasiya üzrə fəaliyyəti və digər layihələr barədə məlumat verilir. Bildirilib ki, ölkəmiz 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyasının 35 faiz azaldılması, 2050-ci ildə isə bu hədəfin 40 faizə çatdırılacağına dair öhdəliyi təsdiqləyib. Bu istiqamətdə aktiv fəaliyyət göstərmək Azərbaycan hökuməti üçün prioritet məsələdir.






Dekabrın 4-də, həmçinin Azərbaycan pavilyonunda IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Təbiəti Mühafizə Fondunun təşkilatçılığı ilə "İqlim dəyişməsi və ekosistemlərin bərpası" mövzusunda tədbir keçirilib.

Ümumdünya Təbiəti Mühafizə Fondunun Qafqaz ofisinin mühafizə meneceri Maka Bitsadze, layihə meneceri Yerney Strith, Fondun Azərbaycan nümayəndəliyinin rəhbəri Elşad Əskərov və IDEA təşkilatının nümayəndəsi Zərxanım Ağayeva regionda təbiətin mühafizəsi və bərpası layihələri barədə məlumat verib, Azərbaycanın bu layihələrdəki xüsusi rolunu vurğulayıblar. Bildirilib ki, ötən əsrin ortalarında nəsli kəsilməkdə olan ceyranların tarixi arealı bərpa olunmaqdadır və yeni ərazilərə 350 başa yaxın ceyran köçürülüb. O cümlədən işğaldan azad olunmuş ərazilərə 33 baş ceyran reintroduksiya edilib və bu proses davam etdiriləcək.

# "Azərbaycan ilə Türkiyə hər zaman bir-birinin yanındadır"



## *YAP ilə AK Partinin nümayəndələri arasında görüş keçirilib*



***Dekabrın 4-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin xarici əlaqələr üzrə müavini Zafer Sırakayanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.***

Qonaqları salamlayan YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan-Türkiyə əməkdaşlığının genişləndirilməsində hakim partiyalar arasındakı səmərəli əlaqələrin mühüm rol oynadığını vurğulayaraq YAP-AK Parti işbirliyinin önəminə diqqəti cəlb edib. Bu ilin oktyabr ayında YAP nümayəndə heyətinin qardaş Türkiyəyə səfərini məmnunluqla xatırlayan Tahir Budaqov səfər çərçivəsində məhsuldar görüşlərin keçirildiyini vurğulayıb. O, 2021-ci il iyunun 2-də iki partiya arasında imzalanmış Əməkdaşlıq Protokolundan irəli gələn vəzifələrin icra olunmasının, o cümlədən qarşılıqlı səfərlərin reallaşdırılmasının, fikir və təcrübə mübadiləsinin aparılmasının həm YAP-AK Parti, həm də bütövlükdə Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına mühüm töhfə olduğunu diqqətə çatdırıb.

İki partiyanın gəncləri arasında əlaqələrin gücləndirilməsinin önəminə diqqəti cəlb edən YAP Mərkəzi Aparatının rəhbəri AK Parti nümayəndə heyətinin ölkəmizə səfərinin məhsuldar və faydalı olacağına əminliyini ifadə edib.

Səmimi qəbula və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakaya Azərbaycan-Türkiyə qardaşlığının sarsılmaz və bütün dünyaya nümunə olduğunu vurğulayıb. "Azərbaycan ilə Türkiyə hər zaman bir-birinin yanındadır",- deyən Zafer Sırakaya qarşılıqlı səfərlərin münasibətlərin inkişafına və əməkdaşlığın dərinləşdirilməsinə təkan verdiyini bildirib.

Hakim partiyalar arasında əlaqələrin inkişafının dövlətlərarası münasibətlərin mühüm tərkib hissəsi kimi diqqət mərkəzində olduğunu söyləyən Z.Sırakaya AK Partinin YAP ilə işbirliyinə böyük önəm verdiyini qeyd edib. Partiyalararası münasibətlərin dinamik xarakter daşıdığını qeyd edən AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini "Şübhə yoxdur ki, genişmiqyaslı əməkdaşlıq çərçivəsində görəcəyimiz işlər həm partiyalarımız, həm də ölkələrimiz üçün faydalı olacaq, müştərək hədəflərin gerçəkləşməsini təmin edəcək" deyib. Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

# YAP-ın nümayəndələri və AK Parti nümayəndə heyəti Ümummilli Lider Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət ediblər



***Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakayanın rəhbərlik etdiyi nümayəndə heyəti Yeni Azərbaycan Partiyasının (YAP) dəvəti ilə ölkəmizə səfərə gəlib.***



Səfər çərçivəsində dekabrın 4-də YAP-ın nümayəndələri və AK Parti nümayəndə heyəti Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, gül dəstələri düzüblər. Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da əziz xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb. Sonra



YAP-ın nümayəndələri və AK Parti nümayəndə heyəti tərəfindən Şəhidlər Xiyabanı ziyarət olunub. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.





Daha sonra Bakıdakı "Türk şəhidliyi" abidəsi ziyarət edilib. Azərbaycanın istiqlaliyyəti uğrunda canlarından keçən, Azərbaycan-Türkiyə qardaşlığının əbədiliyini, sarsılmazlığını əks etdirən bu məzarlıqda uyuyan qəhrəman və fədakar türk qardaşlarımızın əziz xatirəsi anılıb, abidənin önünə əklil qoyulub, gül dəstələri düzülüb.

# YAP Mərkəzi Aparatında birgə mətbuat konfransı keçirilib



*Dekabrın 4-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin xarici əlaqələr üzrə müavini Zafer Sırakayanın birgə mətbuat konfransı keçirilib.*



AK Parti nümayəndə heyətini və media nümayəndələrini salamlayan YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan-Türkiyə münasibətlərinin bənzərsiz dostluq-qardaşlıq və unikal əməkdaşlıq nümunəsi olduğunu vurğulayıb. "Ölkələrimizi bir-birinə bağlayan amillər təkcə strateji müttəfiqlik münasibətləri, dövlət maraqları – dövlətçilik mənafeləri deyil, eyni zamanda, ortaq milli-mənəvi dəyərlər və köklü tarixi ənənələr üzərində təşəkkül tapmış sarsılmaz qardaşlıq əlaqələridir" ,- deyən Tahir Budaqov iki ölkənin liderləri – Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın məqsədyönlü siyasəti nəticəsində Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək səviyyədə olduğunu, milli maraqlarımızın uğurla təmin edildiyini vurğulayıb.

Dövlətlərarası əlaqələrdə son 20 il ərzində böyük inkişaf yolunun qət olunduğunu deyən YAP Sədrinin müavini bildirib ki, 44 günlük Vətən müharibəsi qardaşlığımızın sarsılmazlığını bir daha sübuta yetirdi. 2021-ci il iyun ayının 15-də Azərbaycan ilə Türkiyə arasında Strateji Müttəfiqliyə dair Şuşa Bəyannaməsinin imzalanmasının dövlətlərarası münasibətlərin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsini şərtləndirdiyini deyən Tahir Budaqov bildirib: "Prezident İlham Əliyevin prinsipial mövqeyi nəticəsində Azərbaycan haqq işini qələbə ilə yekunlaşdırdı - əzəli və əbədi torpağımız olan Qarabağda lokal antiterror tədbirlərinin həyata keçirilməsi ilə ölkəmizin suverenliyi, konstitusiya quruluşu tam bərpa edildi. 44 günlük Vətən müharibəsində Azərbaycana böyük mənəvi-siyasi dəstək göstərən qardaş Türkiyənin yeni reallıqlar fonunda da ölkəmizin haqlı mövqeyini müdafiə etməsi qardaşlıq örnəyi kimi yüksək qiymətə layiqdir".

Azərbaycan-Türkiyə birliyinin Türk dünyasında da yeni imkanlar və parlaq perspektivlər yaratdığını bildirən YAP Sədrinin müavini mövcud gerçəkliklər fonunda Türk dövlətlərinin ortaq hədəflərə yönəlik birgə təşəbbüslərinin böyük önəm daşıdığını diqqətə çatdırıb.

İki ölkənin hakim partiyaları – YAP ilə AK Parti arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyini söyləyən Tahir Budaqov "Azərbaycan-Türkiyə birliyinin güclənməsi və işbirliyinin dərinləşməsində partiyalarımız arasında əməkdaşlığın mühüm rolu var" deyib. İqtidar partiyaları arasında əlaqələrin keyfiyyətcə yeni mərhələyə yüksəldiyini söyləyən YAP Sədrinin müavini bildirib: "2021-ci il iyunun 2-də YAP ilə AK Parti arasında imzalanmış Əməkdaşlıq Protokolundan irəli gələrək ikitərəfli münasibətlərin inkişafına xidmət edən məqsədyönlü fəaliyyətimizi uğurla davam etdiririk. Eyni zamanda, Türk dünyasında hakim siyasi partiyalar arasında əlaqələrin genişləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsi məsələrini də diqqət mərkəzində saxlayırıq. Bu il noyabrın 14-də Yeni Azərbaycan Partiyası, Ədalət və İnkişaf Partiyası və Şimali Kipr Türk Cümhuriyyətinin hakim Ulusal Birlik Partiyası arasında Anlaşma Memorandumunun imzalanmasını bu baxımdan xüsusi qeyd etmək lazımdır. Bu fakt YAP ilə AK Parti arasındakı sıx təmasların təkcə ikitərəfli münasibətlərin inkişafını əhatə etmədiyini, həm də çoxşaxəli əməkdaşlığa hədəfləndiyini təsdiqləyir".

AK Parti nümayəndə heyətinin ölkəmizə səfərinin Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin daha bir bariz nümunəsi olduğunu söyləyən Tahir Budaqov "Hakim siyasi partiyalar kimi qarşılıqlı fəaliyyətimizi uğurla davam etdirəcək və əlaqələrimizi daha da gücləndirəcəyik. Biz birlikdə güclüyük və bundan sonra da möhtəşəm uğurlara imza atmaq əzmindəyik" deyib.

AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakaya yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirərək Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edib. O qeyd edib ki, Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı və strateji müttəfiqliyi bu gün dünyada mühüm bir reallıqdır və tamamilə fərqli məzmuna, müstəsna əhəmiyyətə malikdir. "İstər Azərbaycan Prezidenti cənab İlham Əliyev, istərsə də Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan hər zaman iki qardaş ölkə arasındakı münasibətlərin bənzərinin olmadığını, Azərbaycan-Türkiyə qardaşlığının əbədi olduğunu qürurla ifadə edirlər. Təqdirəlayiq haldır ki, ölkələrimiz bu gün dünyada davamlı inkişafı və yüksək nüfuzu ilə fərqlənir, beynəlxalq münasibətlər sistemində layiqli yer tutur və öz mövqelərini möhkəmləndirirlər. Dövlət başçılarının iradələri əsasında Azərbaycan-Türkiyə qardaşlığı sarsılmaz xarakter alıb və ikitərəfli münasibətlərimiz keyfiyyətcə yeni mərhələyə yüksəlib. Azərbaycan yeni hədəflərinə əmin addımlarla irəliləyən Türkiyəyə öz qardaş dəstəyini göstərir. Türkiyədə bu ilin əvvəlində baş vermiş dəhşətli zəlzələnin fəsadlarının aradan qaldırılmasında Azərbaycanın qardaş dəstəyinin unudulmaz olduğunu xüsusi qeyd etmək istəyirəm. Türkiyə də öz növbəsində Azərbaycanın yanında olduğunu qətiyyətlə ifadə edir. Xüsusilə də, 44 günlük Vətən müharibəsində və sonrakı proseslərdə Prezident cənab Rəcəb Tayyib Ərdoğan başda olmaqla Türkiyə ictimaiyyəti qardaş Azərbaycana birmənalı mənəvi-siyasi dəstəyini ifadə etmiş, qətiyyətli mövqe ortaya qoymuşdur. Bu, bizim qardaşlıq borcumuzdur və sarsılmaz birliyimizin bariz örnəyidir. Bütün bunlar sevincimizin də, kədərimizin də bir olduğunu təsdiqləyir".

Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyini bərpa etməsini tarixi hadisə kimi dəyərləndirən Zafer Sırakaya Azərbaycan ilə Türkiyənin birgə təşəbbüslərinin regionda sülhə, sabitliyə və təhlükəsizliyə xidmət etdiyini bildirib: "Azərbaycanın Qələbəsindən sonra regionda yeni reallıqlar yaranıb. Təbii ki, bu tarixi mərhələ ölkələrimiz və partiyalarımız üçün də yeni vəzifələr müəyyənləşdirib. Hakim partiyalar kimi YAP ilə AK Parti həm ikitərəfli münasibətlərin inkişafı, həm də yeni gerçəkliklərdən irəli gələn hədəflərin reallaşdırılması üçün ardıcıl fəaliyyət göstərirlər. Artıq qeyd olunduğu kimi, biz 2021-ci ildə Əməkdaşlıq Protokolu imzalamaqla partiyalar arasında qarşılıqlı faydalı işbirliyinin möhkəm siyasi-hüquqi əsaslarını yaratmışıq və səmərəli fəaliyyətimizi davam etdiririk. Əməkdaşlıq Protokolu Yeni Azərbaycan Partiyası ilə AK Parti arasında çoxşaxəli işbirliyini təsbit edən mühüm yol xəritəsidir və sənəddə əks olunan öhdəliklərin yerinə yetirilməsi bizə yeni nailiyyətlər qazandıracaqdır".

Rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin partiyalar arasında əməkdaşlığın dərinləşdirilməsi baxımından faydalı olacağına inamını ifadə edən Z.Sırakaya "Yeni çağırışlar bizi daha güclü olmağa vadar edir. Qardaş ölkələrin hakim siyasi partiyaları kimi qarşıda duran bütün hədəfləri gerçəkləşdirəcəyimizə şübhə yoxdur. Azərbaycanın yanındayıq, yanında olmağa davam edəcəyik" deyib. Daha sonra jurnalistlərin sualları cavablandırılıb.

# "Alen Simonyanın bəyanatı təxribatdır"

***"Bildiyiniz kimi, Azərbaycan sülh təşəbbüslərini kənar dövlətlərin müdaxiləsi olmadan regionda vasitəçisiz həyata keçirilməsinin tərəfdarıdır. Ermənistan isə bu günə qədər müxtəlif Qərb subyektlərinə istinad edərək möhtərəm cənab Prezidentin SPECA-nın Bakı zirvəsində də ifadə etdiyi kimi, iki və daha çox stulda oturmağa çalışaraq bu proseslərdə pozucu tərəf kimi çıxış edirdi. Dünən Azərbaycan və Ermənistan şərti sərhədində, sərhədlərin delimitasiyası üzrə vasitəçisiz görüş bu mənada əslində Azərbaycanın ciddi diplomatik uğuru və Azərbaycanın Prezidentinin müəyyən etdiyi gündəliyin işə düşməsindən xəbər verir.***



Əlbəttə, bu, Ermənistanın sülhə və delimitasiya prosesinə sədaqətinin ifadəsi yox, İrəvanın fakt qarşısında başqa çıxış yolu qalmadığının göstəricisidir". Bu sözləri SİA-ya açıqlamasınsa deputat Bəhruz Məhərrəmov deyib.

Onun sözlərinə görə, Ermənistan ayrı-ayrı dövlət rəsmilərinin məsələn, xarici işlər nazirinin ATƏT-in Nazirlər Forumunda, yaxud Ermənistan parlamentinin sədrinin müsahibəsi və çıxışlarında təxribatçı bəyanatlar səsləndirməsi ümumi prosesin gedişatına zərər vuran ifadələr işlətməsi də əslində Ermənistanın Azərbaycanın yaratdığı yeni reallıqda situasiyaya tabe olmağa məcbur qalmasından xəbər verir: "Konkret olaraq Ermənistan parlamentinin sədri Alen Simonyanın bəyanatlarına gəlincə, Azərbaycan ilk gündən gizlətmir ki, Ermənistan-Azərbaycan şərti sərhədləri boyu Azərbaycan Ordusu bütün strateji yüksəklərə nəzarət edir. Azərbaycan nəinki Ermənistanın 31 kəndi, bütövlükdə Ermənistanın bir çox iri şəhərləri və şərti sərhədlərimiz boyu yerləşən bütün məntəqələri üzrə əlverişli mövqedə qərarlaşıb. Lakin məhz Ermənistanın ucbatından sərhədlərin delimitasiya və demarkasiyası aparılmadığı üçün möhtərəm Prezidentin də ifadə etdiyi kimi, sərhədlərin hardan keçməsi ilə bağlı heç kim hər hansı bir iddia irəli sürə bilməz. Bu mənada Alen Simonyanın Azərbaycanın Ermənistanın 31 kəndlərində qanunsuz olaraq nəzarəti ələ keçirməsi ilə bağlı bəyanatı absurd təxribatdan başqa bir şey deyil və Simonyan unutmamalıdır ki, sərhədlərin demarkasiya olunmamasında, yəni dəqiqləşməməsinə görə delimitasiya, demarkasiya olunmamasına və sərhəd xətlərinin dəqiqləşməməsinə görə məsuliyyəti Azərbaycan yox, Ermənistan daşıyır. Ərazilər üzərində qanunsuz nəzarətə gəlincə 30 il ərzində işğalı davam etdirmiş, çoxsaylı sülh və insanlıq əleyhinə müharibə cinayətləri törətmiş bir dövlətin parlamentinin sədrinin özünün suverən haqlarını bərpa etmiş, beynəlxalq hüququn aliliyini təmin etmiş dövlətə münasibətdə hər hansı ərazi iddiası şousu qəbuledilməzdir və biz bu tip bəyanatları və mövqeyini rədd edirik".

**Ayşən Vəli**

# Könüllülük davamlı inkişaf yolunda






***Vətəndaşın, cəmiyyətin və dövlətin fəaliyyətini təcəssüm etdirən könüllülük gənclər siyasətinin əsas istiqamətlərindəndir. Əlbəttə ki, müasir dövrümüzdə vətənpərvər Azərbaycan gəncliyi ölkənin ictimai-siyasi, sosial-iqtisadi və digər sferalarında aktiv fəaliyyət göstərir, intellektual imkanları və yaradıcılığı ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə töhfəsini verir. Bu gün Azərbaycan gəncliyi ona göstərilən diqqətin fərqindədir və gənclik ona olan etimadı hər zaman doğrultmaq üçün bütün potensalından maksimum dərəcədə istifadə edir. Millətin mövcudluğunda, dövlətin tərəqqisində, dünyada nüfuz qazanmasında əlbəttə ki, vətəpərvər gəncliyin rolunu xüsusi olaraq qeyd etməliyik.***



### HƏRBİ XİDMƏT ÜÇÜN ÖZÜNÜ TƏQDİM EDƏN

Bildiyimiz kimi, hər il BMT Baş Assambleyasının 1985-ci il 17 dekabr tarixində qəbul olunan qətnaməsi əsasında hər il 5 dekabr dünyada Beynəlxalq Könüllülər Günü kimi qeyd olunur. Bu gün ölkəmizdə də qeyd olunur. Qeyd olunan günün böyük anlamı var. Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. "Könüllü" termininin etimologiyasına nəzər salsaq görərik ki, bu söz öz ilk dəfə 1600-cı illərdə istifadə olunub. "Hərbi xidmət üçün özünü təqdim edən" mənasını daşıyır.

Ölkəmizdə könüllülük fəaliyyəti üçün hər cür şərait yaradılıb, bu istiqamətdə zəruri hüquqi baza mövcuddur. Eyni zamanda, bütün dövlət qurumları tərəfindən bu fəaliyyətə cəlb olunmuş təşkilat və şəxslərə lazımi dəstək göstərilir. Bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılmış, normativ hüquqi baza təkmilləşdirilmiş, dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır. Bu fəaliyyətlə məşğul olanlar digər şəxslərə kömək etməklə yanaşı, öz bilik və bacarıqlarını təkmilləşdirmək imkanı qazanırlar.Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 9 iyun 2009-cu ildə "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minib. Bu Qanunun məqsədi hüquqi və fiziki şəxslərin əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti sahəsində yaranan münasibətləri tənzimləyir. Qanunun qəbul edilməsi Azərbaycan könüllülük fəaliyyətinin inkişafında təkanverici rol oynadı. Bu qanunla Azərbaycanda könüllülük fəaliyyəti davamlı inkişaf yoluna qədəm qoydu.

### FƏDAKARLIQ, KÖNÜLLÜ VƏ TƏMƏNNASIZ KÖMƏK ƏNƏNƏLƏRİ

Prezidenti İlham Əliyevin realaşdırdığı siyasətin əsas məqsədlərindən biri neft kapitalının insan kapitalına çevrilməsi idi. Bu zaman qarşıya qoyulan məqsədləri gerçəkləşdirmək üçün innovativ və geniş kütlənin maraqlarına cavab verən yeni addımlara ehtiyac vardı və əlbəttə, bu sahədə könüllülüyün mühüm önəm daşıması danılmaz idi. Əlbəttə ki, müasir dövrümüzdə ölkəmizin demək olar ki, hər bir yerində könüllü gənclərin də payı var. Azərbaycanda həyata keçirilən beynəlxalq və qitə miqyaslı tədbirlərdə, o cümlədən idman yarışlarında gənclərin könüllülər qrupunda təmsil olunması vətənpərvər, milli köklərə bağlı, müasir dünyagörüşlü, şəxsi keyfiyyətləri yüksək olan vətəndaş kimi formalaşmasını özündə təcəssüm etdirir. Könüllülük fəaliyyəti gənclərdə faydalı əmək, həmrəylik kimi dəyərlər aşılamış olur. Qeyd edək ki, 2020-ci il Azərbaycan Respublikasında dövlət başçısının Sərəncamı ilə "Könüllülər ili" elan edilmişdir. Bu Sərəncam gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədi daşıyır. Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələrini yaşatmışdır.




### BİZİ BİR MİLLƏT OLARAQ YAŞADAN VƏTƏNİMİZDİR

Ulu Öndər Heydər Əliyevin müdrik kəlamını xatırlatmaq yerinə düşər. Ulu Öndər deyirdi ki, gənclərimizin ən mühüm vəzifələrindən biri də ordu sıralarında xidmət etməkdir. Bəli, vətəni qorumaq, onun müdafiəsində durmaqdan şərəfli bir iş yoxdur. Bizi bir millət olaraq yaşadan Vətənimizdir, Vətən torpağıdır. Onun üzərinə axıdılan igid vətən oğullarının qanıdır. Hər bir vətən oğlunun yolu Azərbaycan Silahlı Qüvvələrindən – vətənə xidmətdən keçir, ərənlik və kişilik məktəbindən. Bu gün Azərbaycan Ordusunun hərbi hissələrində vətənpərvərlik, yüksək ruh hakimdir.

2020-ci il Vətən müharibəsində Azərbaycanın vətənpərvər oğulları könüllülüyün daha bir bariz nümunəsini əməldə ifadə etdilər. Ali Baş Komandanın ətrafında sıx birləşərək, Vətən müharibəsində iştirak etməyə qərər verdilər. İsrarlı olaraq, torpaqlarımızı müdafiə etməyə qalxdılar. Vətənin müdafiəsinə qalxan oğullar erməniyə dərs vermək, işğal altında olan torpaqlarımızı azad etmək uğrunda könüllü olaraq orduda xidmət etmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etdilər. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çağırışına səs verdilər. Yaşından asılı olmayaraq, hər kəs müsəlləh əsgərə çevrildi. Sağlam düşüncəli gənclərimiz könüllü olaraq ön cəbhəyə yola düşdülər. Vətənin müdafiəsində dayandılar. Heç şübhəsiz ki, öz iradəsi və sərbəst seçimi əsasında əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti həyata keçirən könüllülük əsasında cəmiyyət, vətən naminə təmənnasız işlərin görülməsi dayanır. "Ölkəmizdə hazırda sistemli və dinamik inkişaf edən könüllülük hərəkatı mövcuddur. Könüllülərin sosial sahədə, ictimai xidmətlər sektorunda töhfəsi aydın hiss olunur. Onlar cəmiyyətin maraqları naminə təmənnasız fəaliyyət göstərərək müxtəlif mədəni tədbirlərin, idman yarışlarının, ekoloji və sosial aksiyaların, təbliğat və maarifləndirmə kampaniyalarının uğurla keçirilməsində, dövlət xidmətlərinin vətəndaşlara çatdırılmasında yaxından iştirak edirlər. Minlərlə könüllü 44 günlük Vətən müharibəsi zamanı Azərbaycana müqəddəs övladlıq borcunu şərəflə yerinə yetirmişdir", - deyə Prezident bildirib.

### YERLİ İCRA HAKİMİYYƏTİ ORQANLARI YANINDA KÖNÜLLÜ QRUPLARI

Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilib, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etmiş, gənclərin həyat tərzinə çevrilib. "Regional İnkişaf" İctimai Birliyi, "Bir" Tələbə könüllüləri və digər könüllü hərəkatları yaranıb, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşıb. Ölkəmizdə mərkəzi icra hakimiyyəti orqanı və bütün yerli icra hakimiyyəti orqanları yanında könüllü qrupları yaradılıb. Belə ki, bu gün ölkəmizdə "Gənc Könüllülər", "RİİB Könüllüləri", "BİR Tələbə-Könüllülər", "Aqrar İnkişaf Könüllüləri", "KOB Könüllüləri", "Miqrasiya Könüllüləri", "Ədliyyə könüllüləri" və s. qurumlarda müxtəlif könüllülər təşkilatları uğurla fəaliyyət göstərirlər.

Eyni zamanda, 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN Xidmət) yanında könüllü təşkilat olan ASAN Könüllüləri Təşkilatı yaradıldı. "ASAN xidmət" mərkəzləri yarandığı gündən könüllülərin fəaliyyətindən geniş istifadə olunur. Könüllülər "ASAN xidmət"in ayrılmaz tərkib hissəsinə çevrilib.

Onlar yüzlərlə fərqli layihələr həyata keçiriblər, müxtəlif təlim və treninqlərə cəlb ediliblər. 2013-cü il dekabrın 19-da "ASAN Könüllülərinin I Qurultayı" keçirilib. Əlbəttə ki, keçirilən tədbirlər ölkəmizdə vüsət almış gənclər siyasətinin tərkib hissəsidir. Ölkəmizdə keçirilən Avroviziya Mahnı Müsabiqəsi, I Avropa Oyunları, "Formula 1" yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynayıblar. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva könüllülərə, onların fəaliyyətinə yüksək dəyər verirlər. Hazırda ölkəmizdə yürüdülən gənclər siyasətinin mərkəzində gənclərin maraqları, onların potensiallarının artırılması, cəmiyyətə yararlı vətəndaş kimi yetişmələri dayanır.

"Müharibədə qazandığımız parlaq Zəfərdən sonra ölkəmiz üçün artıq yeni dövr başlamışdır", - deyən Prezident bildirib ki, xalqımız müharibə meydanında nümayiş etdirdiyi hünəri azad olunmuş torpaqlarımıza həyatın yenidən qaytarılmasına yönələn genişmiqyaslı abadlıq-quruculuq və bərpa işlərində göstərir. Böyük Qayıdışın uğurla gerçəkləşdirilməsi prosesinə gənclər öz töhfələrini verirlər.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Qələbəmizi dünyaya göstərən möhtəşəm - ZƏFƏR PARADI



## PREZİDENT İLHAM ƏLİYEV: "Bu gün Azadlıq meydanına döyüşlərdə olmuş Azərbaycan bayraqları gətiriləcək"

Təhlil

Bəli, bu gün – Qarabağ Azərbaycandır! Qələbə Zəfəri ilə keçirilən Qələbə Paradından üç il ötür. Bu paradın həsrətini düz 30 il idi ki, gözləyirdik. Və sentyabrın 27-dən başlanan İkinci Qarabağ müharibəsində 5 şəhərimizi Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində işğaldan azad etdik, Azərbaycanın müzəffər ordusu 5 min kvadrat kilometr ərazisini isə döyüş meydanında heç bir güllə atmadan, şəhid vermədən siyasi meydandakı qələbəsilə qaytartdı. Zəfər paradında 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi oldu. Paradda, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi nümayiş etdirildi. Bu böyük qələbəmizdir. Bu qələbə münasibəti ilə keçirilən parad isə həm də o topaqlarımızın 30 il həsrətində olduğu Qələbə paradı oldu. Nəhayət, bu, Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının həm siyasət, həm də döyüş meydanında diplomatik siyasətinin, Müzəffər Şanlı Ordumuzun, igid əsgər və zabitlərimizin qanı töküldüyü Qarabağ Azərbaycandır! - Müqədəs torpağımızın həsrətinə son qoyulduğu Zəfərin dünyaya nümayiş ediləcək paradı oldu. Bu parad torpaqlarımızın işğaldan azad olunmasında hərbi texnikamızın, həmin torpaqlarda dalğalanan üç rəngli Bayraqlarımızın nümayiş olunduğu, intizarında və həsrətində olduğumuz parad oldu. Beləliklə, Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş möhtəşəm Zəfər paradının keçirilməsi ilə Azərbaycanın şanlı qələbəsi əzəmətli və təntənəli şəkildə təqdim olundu.

### BU QƏLƏBƏ İLƏ AZƏRBAYCAN DÜNYAYA SÜBUT ETDİ Kİ, ÖZÜNÜN POZULMUŞ HÜQUQLARINI ÖZÜ BƏRPA ETMƏK İQTİDARINDADIR

Azərbaycan son 200 illik tarixində itirdiyi torpaqlarını qaytara bilmədiyi bir halda, Prezident, Ali Baş Komandanımız İlham Əliyevin güclü siyasi iradəsi, qətiyyəti, uzaq görən siyasəti, vətəninə və torpağına olan böyük məhəbbəti, Güclü Ordumuzun, igid əsgər və zabitlərimizin şücaəti ilə torpaqlarımız işğaldan azad edildi. Bu Azərbaycanın tarixi, parlaq qələbəsidir. Bu qələbə ilə Azərbaycan dünyaya sübut etdi ki, özünün pozulmuş hüquqlarını özü bərpa etmək iqtidarındadır. Və sübut etdi ki, Azərbaycan haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası, öz torpağında öz torpağı uğrunda vuruşub. Siyasi meydanında işğalçı düşməni layiq olduğu yerini göstərməklə bərabər bir daha sübut etdi ki, bizi öz haqq işimizdən heç bir qüvvə çəkindirə bilməz. Artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur və bu gün Prezidentin imzaladığı 2 dekabr 2020-ci il tarixli Sərəncamları əsasında hər il 8 noyabrda Zəfər Günü və 27 sentyabr Anım Günü təsis edildi. Bu tarix Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Və bu gün qalib Azərbaycanın vətəndaşı olmağımızla qürur duyuruq. Qürur duyuruq ki, uğurlarımızın təməlində xalq-iqtidar birliyi dayanır və 44 günlük Vətən Müharibəsində bu birlik daha da bərkiyərək dəmir yumruğa çevrildi. O dəmir yumruq ki, düşmənin başından vurmaqla belini qırdı. Sözsüz ki, asan yolla qələbə qazanmaq olmur. Bu qələbə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Güclü Ordumuzun, Rəşadətli əsgər-zabitlərimizin igidliyi ilə bu qələbəni qazandıq. Dövlətimizin başçısı İlham Əliyev Laçının işğaldan azad olunması münasibətilə xalqa təbrikində bir daha bildirdi ki, döyüş meydanında, siyasi müstəvidə qazandığımız Qələbə ölkəmiz üçün yeni dövr açır. 30 il gözlədiyimiz o möhtəşəm tarixə şahidlik etmək zamanı yetişdi! 8 noyabr 2020-ci il - Qarabağa qovuşduğumuz tarix 8 noyabr 2020-ci il, Qarabağa qovuşduğumuz tarix gün. Bu Böyük Qələbə Günüdür! Şanlı tariximizə daxil olan Zəfər günüdür!. Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə NİDA! qoyduğu gündür. Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş naziri tərəfindən noyabrın 10-da imzalanan üçtərəfli bəyanat Azərbaycan tarixinin ən böyük diplomatik qələbəsini təsdiq edən gündür. Üçtərəfli bəyanata əsasən Dağlıq Qarabağın heç bir xüsusi statusu olmayacaq. Dağlıq Qarabağ Muxtar Vilayəti də tarixə qovuşdu. Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri birgə bəyanat imzaladılar. Bu bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında darmadağın edilən Ermənistanın Azərbaycan Prezidentinin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etməkdən başqa çıxış yolu qalmadı.

### PREZİDENT RƏCƏB TAYYİB ƏRDOĞAN: "Türkiyə və Azərbaycan tarixi bir, mədəniyyəti bir, dili bir, dini bir iki qardaş ölkədir"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda təntənəli hərbi parad keçirilən zaman demişdir: "Əvvəla, Azərbaycanın müstəqilliyi üçün canlarını fəda edən bütün şəhidlərimizi ehtiramla anırıq, onlara Allahdan rəhmət və ruhlarının şad olmasını diləyirəm. Onlar fədakarlıqları və cəsarətləri ilə özlərindən sonra nəsildən-nəslə qürurla xatırlanacaq şanlı bir dastan yazaraq, Türkiyə və Azərbaycanın əbədi qardaşlığının da rəmzi oldular". Rəcəb Tayyib Ərdoğan çıxışnda bildirmişdir: "Böyük şair, mərhum Bəxtiyar Vahabzadənin də bu birliyimizi belə gözəl ifadə edib:

Bir ananın iki oğlu, bir amalın iki qolu.
O da ulu, bu da ulu, Azərbaycan-Türkiyə.
Dinimiz bir, dilimiz bir, Ayımız bir, ilimiz bir,
Eşqimiz bir, yolumuz bir, Azərbaycan-Türkiyə.
Birdir bizim hər halımız, sevincimiz-məlalımız.
Bayraqlarda hilalımız, Azərbaycan-Türkiyə.
Ana yurdda yuva qurdum, ata yurda könül verdim.
Ana yurdum, ata yurdum, Azərbaycan-Türkiyə".

Türkiyə və Azərbaycanın birliyi bu misralarda təcəssüm edən qardaşlığın ən gözəl nümunəsidir. Bu gün də – Vətən Müharibəsinin ilk günündən bu günə kimi, 44 günü Türkiyə Azərbaycanın yanında olub, tarixi Qələbə Zəfərinə birlikdə sevinib. Azərbaycan-Türkiyə həmişə sevincli, kədərli günlərində eyni sevinci, eyni kədəri keçirib və bu gün də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın Qələbə Zəfərli Paradında da iştirak edəcək.

### PREZİDENT İLHAM ƏLİYEV: "Biz 100 il öncə də bir yerdəydik və birlik nümayiş etdirirdik, indi də eləyik"

Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibəti ilə keçirilən paradda vurğulamışdı ki, Bakı artıq o dövrdə yaşadığı çətinlikləri geridə qoyub və hazırda daha güclü bir Azərbaycan mövcuddur: "Biz bu ilin may ayında AXC-nin 100 illiyini qeyd etdik. Biz Şərqin ilk demokratik respublikasını Azərbaycanın yaratmış olmasından qürur duyuruq. Ölkəmiz böyük çətinliklərlə üzüzə idi və ərazilərimizə tam nəzarət edə bilmirdik. Bakı və bir neçə başqa şəhərlərimiz işğal altında idi. Hökumətimiz Gəncədə yerləşmiş və orda fəaliyyət göstərmişdi. Qafqaz İslam Ordusunun Azərbaycana gəlişi, Gəncədən Bakıya uzanan qələbə marşı və sentyabrın 15-də şiddətli döyüşlər nəticəsində Bakının azad edilməsi tarixi hadisə idi. Qədirbilən Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq və bu qələbə uğrunda canını fəda edən şəhidlərin xatirəsini daim əziz saxlayacaqdır".

### GÜN GƏLƏCƏK AZƏRBAYCANIN DÖVLƏT BAYRAĞI BU GÜN HƏLƏ DƏ İŞĞAL ALTINDA OLAN BÜTÜN TORPAQLARDA QALDIRILACAQDIR

Bu gün növbəti qələbə paradımız Xankəndidə keçirildi. 2023-cü il, 15 oktyabr tarixində Azərbaycan xalqı Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev prezident vəzifəsinə seçilməsinin 20-ci ildönümündə tarixi torpaqlarımız olan Xankəndi, Xocalı, Ağdərə, Xocavənd şəhərlərində və Əsgəran qəsəbəsində müqəddəs üçrəngli bayrağımızı qaldırdı. Bu şərəfli, tarixi gün cənab Prezidentin 20 illik gərgin fəaliyyətinin zəfər zirvəsi, xalqın öz Lideri ilə həmrəyliyinin, birliyinin təntənəsidir. Dövlətimizin başçısı gərgin əməyi, qətiyyəti, iradəsi ilə ötən 20 illik fəaliyyətində göstərdi ki, O, xalqına verdiyi bütün vədləri yerinə yetirmək iqtidarındadır. Və son 20 ilin uğurları bir daha sübut etdi ki, onun sözü imzası qədər keçərlidir. Çünki Prezident İlham Əliyev nəyi, necə, nə vaxt etmək lazımdır yaxşı bilir. Və xalqımız dövlətimizin başçısının son 20 illik prezidentlik fəaliyyəti zamanı xreallığa çevirdiyi bütün uğurların şahidləriyik. Xüsusilə də, Müzəffər Ali Baş Komandan İlham Əliyev Xankəndidə üçrəngli bayrağımızı qaldırmaqla bir əsrlik saxtakarlığa son qoyulduğunu bütün dünyaya nümayiş etdirdi. 20 il öncə xalqımız etimad mandatı verərək özünə Prezident seçdiyi İlham Əliyevə inandı, güvəndi və səbirlə gözlədi. Sözü imzası qədər keçərli olan Azərbaycan Prezidenti tam müstəqil siyasəti ilə 20 ildə Ermənistanı dünyada işğalçı dövlət kimi tanıda bildi. Bu il sentyabrın 19-da Azərbaycan Silahlı Qüvvələri antiterror tədbirləri keçirərək separatçıları 23 saat ərzində məhv etdi. Bəli, Azərbaycan Prezidentinin Xankəndi müraciəti mərkəzi hakimiyyətin Qarabağın gələcəyinə, Ermənistanla normallaşma münasibətinə ismarışdır. Prezident İlham Əliyevin 20 illik hakimiyyəti Azərbaycanın dövlət müstəqilliyi və suverenliyinə uzanan, ölkəni qarışdıran əlləri kəsdi. Azərbaycanın qanayan yüzillik yarası sağaldı... Bəli, hər keçirilən Qələbə Zəfər paradı Azərbaycan xalqı üçün qürur, şərəf, ləyaqət simvolu, ermənilər üçün məğlubiyyət, işğal siyasətinin acı ibrət dərsi olaraq tarixləşəcək. Və bizə bu Qələbəni yaşadan Müzəffər Ali Baş Komandanımıza, rəşadətli Azərbaycan Ordusuna, Vətən torpaqları uğrunda canlarından keçən igid oğullarımıza minnətdarıq!Bir sözlə, bu gün Xankəndidə dalğalanan üçrəngli bayrağımız hər birimiz üçün xoşbəxtlik, fərəh, qürur, ləyaqət, fəxarət salnaməsidir. Dövlət başçımızın söylədiyikimi: "Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"Bəli, hər keçirilən Qələbə Zəfər paradı Azərbaycan xalqı üçün qürur, şərəf, ləyaqət simvolu, ermənilər üçün məğlubiyyət, işğal siyasətinin acı ibrət dərsi olaraq tarixləşəcək. Və bizə bu Qələbəni yaşadan Müzəffər Ali Baş Komandanımıza, rəşadətli Azərbaycan Ordusuna, Vətən torpaqları uğrunda canlarından keçən igid oğullarımıza minnətdarıq! Və bu Qələbə Paradları Azərbaycan Silahlı Qüvvələrinin tarixinə, hərb tariximizə yaddaşlardan silinməyəcək şanlı bir səhifə kimi yazılacaq! Qarabağ Azərbaycandır! QƏLƏBƏ PARADLARIMIZ MÜBARƏK OLSUN!

**RƏFİQƏ KAMALQIZI**




Bujar Osmani
Minister of Foreign Affairs of North Macedonia

# Amorf təşkilatdan POPULİST, DEKLORATİV BƏYANAT

Təhlil

***ATƏT adlı beynəlxalq qurum, yəni Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı yenə də Cənubi Qafqaza burnunu soxmağa çalışır və mənasız olmasına baxmayaraq, bu istiqamətdə səy göstərməkdədir. Bu beynəlxalq qurumun hazırkı sədri və Şimali Makedoniyanın xarici işlər naziri Bujar Osmani Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanmasına yönəlmiş dialoqun tərəfdarı olduğunu bildirib. Amma nəzərə almayıb ki, əvvəla, rəhbərlik etdiyi təşkilat çox gecikib, Azərbaycan heç bir vasitəçi olmadan danışıqlar aparmaq təklifi ilə çıxış edib və Ermənistan tərəfindən bununla bağlı müvafiq addımlar gözlənilir. Digər tərəfdən də, təşkilatın sədri deyəsən indi rəhbərlik etdiyi ATƏT adlı qurumun artıq keçmişdə qalan münaqişə ilə əlaqədar bu vaxta qədər heç bir addım atmadığını və etimadını, nüfuzunu itirdiyini, amorf təşkilata çevrildiyini dərk edə bilməyib.***

"Sədrlik Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin əldə olunmasına yönəlmiş siyasi prosesin davam etdirilməsini dəstəkləyir", - deyə bəyan edən Osmani sadəcə populistcəsinə çıxış edib. Onun belə populiscəsinə fikir səsləndirməsi deklorativ bəyanat olaraq qəbul oluna bilər, çünki bu təşkilatın uzun zaman kəsiyində olan fəaliyyəti bundan artığını düşünməyə belə imkan vermir. "ATƏT region ölkələri arasında "konstruktiv dialoq" üçün platforma təklif edir", deyə əlavə edən ATƏT sədri nəyi nəzərdə tutur? Axı təkcə biz yox, bütün dünya sözügedən təşkilatın düz 30 il müddətində heç bir əməli iş görmədiyinin şahidi olub. Şahidi olub ki, ATƏT bu qədər uzun müddət ərzində münaqişənin həlli istiqamətində bircə dənə də olsa nailiyyətə imza ata bilməyib. Hətta buna səy belə göstərməyib, çünki turist səfərləri etməklə işini bitmiş hesab edib. İndi hansı dırnaqarası "konstruktiv dialoq" barədə söhbər gedə bilər və görəsən, bu fikirlərə inanan ola bilərmi?

On illər ərzində ATƏT-in əlindən imkanı kim almışdı və yatmışdımı ki, indi yuxudan ayılar-ayılmaz yadına Cənubi Qafqaz düşüb? Faktiki olaraq münaqişənin həllində "mükəlləf" olan bu beynəlxalq təşkilat üzərinə düşən vəzifənin öhdəsindən düz 30 il müddətində gələ bilmədi. Yaxud da, öhdəsindən gəlmək istəmədi. Sual olunur ki, axı həmin bu təşkilat bu qədər uzun müddət ərzində, özü də öhdəliyi ola-ola məsələnin həllinə nail ola bilmədisə, yaxuda nail olmaq istəmədisə, indi amorf bir quruma çevriləndən sonra nəyə isə nail olacağına təşkilatın hazırki sədri özü inanırmı? Ümumiyyətlə, buna kiminsə inanması, əmin olması mümkündürmü? Qətiyyən mümkün deyil. Deməli, səsləndirilən fikirlər yalnız populizm nümunəsidir və deklarativ bəyanatdan başqa bir şey ola bilməz. Əgər Cənubi Qafqaz regionundakı proseslərdə ATƏT öz iştirakının olmadığını, yaxud da məsələlərə qarışmağının mümkünsüzlüyünü görüb bundan, yumşaq desək, "xoşlanmırsa" bu, həmin təşkilatın öz günahıdır. Çünki artıq həmin təşkilat həm öz imicini, nüfuzunu itirib, həm də bundan sonrakı proseslərdə bu təşkilata qətiyyən ehtiyac yoxdur.

Reallıq ondan ibarətdir ki, hazırki şəraitdə ATƏT-in "konstruktivizm" çağırışları və digər konvensiyalar belə öz aktuallığını itirib. Azərbaycan öz ərazi bütövlüyünü öz gücü, öz potensialı ilə tam bərpa edib. Ölkəmiz işğal altında olan ərazilərı işğaldan öz hesabına azad edib və artıq Qarabağ iqtisadi rayonu Azərbaycanın öz nəzarəti altındadır. Deməli, Cənubi Qafqazda vəziyyət məhz Azərbaycanın xeyrinə dəyişib və bu reallığı görməyi ATƏT adlı quruma da tövsiyyə edirik. Təşkilatın sədri görmürsə, dərk edə bilmirsə, xatırlada bilərik ki, Qarabağ münaqişəsini öz gücünə həll edən Azərbaycan regionda sülh gündəmini müstəqil şəkildə irəli sürür. Özü də rəsmi Bakı qeyd olunan sülh gündəmini Ermənistanın da, həmin ölkənin Qərb himayədarlarının da siyasətinə və təzyiqlərinə belə məhəl qoymadan reallaşdırmaqdadır. Hər halda bütün bunların fonunda ATƏT-in vasitəçiliyinə ehtiyac olmadığı müzakirə belə ediləcək deyil və təşkilatın sədri də başa düşməlidir ki, deklorativ bəyanatlar verməklə, hansısa prosesə qarışmasına belə yol veriləcəyi qətiyyən mümkün ola bilməz.

Kifayət qədər uzun müddət ərzində heç bir fəaliyyət göstərməyən, münaqişənin həlli istiqamətində bircə dənə də olsa nailiyyət əldə etməyən, hətta etmək istəməyən, amma Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün yaradıldığı qeyd olunan və artıq unudulmuş bir amorf təşkilatın, yəni ATƏT-in çağırışlarına, məsləhətlərinə Bakının indi ehtiyacı varmı? Əlbəttə ki, yoxdur. ATƏT barədə, onun münaqişə ilə əlaqədar fəaliyyətsizliyi, yarıtmazlığı barədə kiminsə, ələlxüsus da təşkilatın sədrinin məlumatsız olması heç də inandırıcı deyil. Təşkilatın sədri də yaxşı bilir ki, Azərbaycan münaqişənin həlli ilə bağlı ATƏT adlı qurumun fəaliyyətsizliyinə düz 30 ilə yaxın səbr etməli olub. Maraqlıdır, həqiqətən də o elə hesab edir ki, rəsmi Bakı bundan sonra da 30 il ATƏT-in fəaliyyətsizliyinə səbr edərək dözməyə razı olar? Çətin ki, belə hesab etsin, çünki artıq Azərbaycanın nəinki ATƏT, ümumiyyətlə, heç bir təşkilatın vasitəçiliyinə ehtiyacının olmadığı göz önündədir. Həm də axı vasitəçisiz danışıqlar barədə rəsmi Bakının İrəvana təklif də etdiyi bəllidir. Belə çıxır ki, bunu bilə-bilə təşkilatın sədri boş fikirlər səsləndirməyi özünə rəva bilib və bunun sadəcə deklarativ bəyanatdan başqa bir şey olmadığını onun özü hamıdan yaxşı bilir.

Olduqca maraqlı ritorik suallar da ortaya çıxır və bu suallar ATƏT sədrinin dediklərinin populizmdən başqa bir şey olmadığına zərrə qədər şübhə yaranmasına belə imkan vermir. İndi Cənubi Qafqaza burnunu soxmaq, guya danışıqlar üçün çalışdığına da inam yaratmaq istəyən həmin o sözügedən amorf təşkilat, torpaqlarımız Ermənistan tərəfindən işğal altında saxlanıldığı dövrdə niyə rəsmi İrəvanı bircə dəfə də olsa konstruktivizmə çağırmamışdı? Nə əcəb konstruktivizm indi yada düşüb? Axı Ermənistanın qeyri-konstruktiv mövqe tutduğunu düz 30 ilə yaxın bu təşkilat sadəcə seyr edirdi. Həmin o qeyri-konstruktiv mövqeyinə görə ATƏT tərəfindən İrəvana bir dəfə də olsa irad belə bildirilməmişdi. BMT Təhlükəsizlik Şurası kimi bir beynəlxalq təşkilatın Azərbaycanın xeyrinə qəbul etdiyi məlum dörd qətnaməsini yerinə yetirmək çağırışını Ermənistana niyə bu vaxta qədər ATƏT etməmişdi? Həmin beynəlxalq təşkilatın qətnamələrini hesaba almırdı, yoxsa çağırış etməyi lazım bilmirdi? İndi buna onsuz da ehtiyac yoxdur və belə məqamda ortaya atılmaq həm yersizdir, həm mənasızdır, həm də qətiyyən imkan veriləsi deyil. Bir təşkilar ki, işğalçı ölkənin, yəni Ermənistanın Qarabağda etnik təmizləmə apardığı bir dövrdə, erməni separatçılarının Qaradağlı, Ağdaban, Ballıqaya, Başlıbel və nəhayət, insanlıq dramı olan Xocalı faciəsini törətdikləri zamanda səsini də çıxarmadı, özünü görməməzliyə, eşitməməzliyə vurdu, həmin təşkilatın bundan sonra çağırışları, eləcə də təşkilatın sədrinin populist fikirləri və bəyanatları Azərbaycan üçün qətiyyən heç bir məna kəsb edə bilməz.

Azərbaycan torpaqları erməni separatçıları tərəfindən işğal və zəbt edildiyi zaman, bir milyondan artıq azərbaycanlı öz yurdyuvasını ölüm, işgəncə təhdidi səbəbindən tərk etdikləri, məcburi köçkün həyatı yaşamaq məcburiyyətində qaldıqları vaxt müşahidəçi mövqedə olan Qərbin, Avropanın, xüsusən də ATƏT-in həmin məqamda nümayiş etdirdikləri susqunluqlarına heç bir ad tapmadan, bəhanə belə gətirmədən indi məsələyə müdaxilə etmək cəhdləri qəbuledilməzdir. Bu, hətta həyasızlıqdır və ən yaxşı halda, populizm kimi görünə bilər. Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı regionun təhlükəsizliyi təhdid altında olanda, regionda böyük təhlükələr olanda, buna məhəl qoymadısa, təhlükənin qarşısının alınması üçün nə isə etmədisə, əməkdaşlıq üçün əməli addım atmadısa, indi hansı üzlə regiona soxulmaq niyyətinə düşə bilər? Təhlükəsizlik təşkilatı təhlükəsizliyin təminatına ehtiyac olduğu zaman öz işini görməli, vəzifəsini icra etməli idi. Əməkdaşlıq istiqamətində də addımlar atılması gərəkən zamanda atılıb ortaya düşməli idi, indi yox. Regionda təhlükəsizliyi, sabitliyi öz gücü, öz potensialı hesabına təmin edən, şəhid qanı bahasına yeni reallıqlar yaradan, haqqı, ədaləti bərpa edən Azərbaycan buna, yəni ATƏT-in bölgəyə burun soxmasına, proseslərə müdaxilə etməsinə imkan verərmi? Əlbəttə ki, verməz və hətta buna artıq ehtiyac da yoxdur axı.

Çox gec yuxudan ayılıb ATƏT və yuxulu-yuxulu da atılıb ortaya, amma hərəkət etmək, fəaliyyət göstərmək lazım olduğu zaman qətiyyən "yerindən" tərpənməyib. Cəmi 44 gün müddətində işğalçı ölkəni hərb meydanında diz çokdürən Azərbaycan Ermənistanın qanunsuz silahlılarının ərazilərimizdən çıxarılması üçün yenə də səbrlə gözlədisə də, nə rəsmi İrəvan bundan nəticə çıxarmadı, nə də ATƏT adlı bir qurum işğalçı ölkəyə nəyinki təsir etməyə çalışmadı, məsələyə heç münasibət belə bildirmədi. Bunun, yəni bir ölkənin silahlılarının başqa bir ölkənin ərazisində gizlənməsinin qanunsuz olması barədə fikir belə səsləndirmədi həmin o beynəlxalq qurum və susaraq gözləmə mövqeyi seçdi, amma öz sədrinin deklarativ bəyanatları fonunda indi səsi çıxmağa başlayıb. Rüsvayçı məğlubiyyətlə üzləşən Ermənistana sülh təklifini qalib ölkə olan Azərbaycan etdiyi zaman bəlkə ATƏT rəsmi İrəvana "öyüd-nəsihət" verib, sülh prosesini ləngitməməyə çağırıb? Xeyir, belə bir çağırışı belə bu üç il ərzində etməyib. Deməli, ATƏT sədri tərəfindən deyilənlər, ifadə olunan fikirlər sadəcə bir populizm nümunəsidir və onun deklarativ bəyanatı nə danışıqlar, nə də sülh üçün nəzərdə tutulmayıb. Uzaq başı, məhz ATƏT sədrinin timsalında avropalıların belə boş, mənasız fikirlər səsləndirmələri səmərəsizliklərini ört-basdır etmək üçündür. Həm də qurum sədrinin belə deklorativ bəyanatları təşkilatın amorf olduğu barədə düşünülməməsi üçün ola bilər, amma təəssüf ki, bu mənada da gecikmələri var, çünki bu qənaətdə olanlar az deyil. "Ermənistanın genişmiqyaslı qanunsuz fəaliyyətinin aradan qaldırılmasında qurumun səmərəsizliyi bu illər ərzində öz təsdiqini tapdı", deyə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun ATƏT-ə ünvanladığı tənqidi fikirlər bunu deməyə əsas verir ki, həqiqətən də təşkilatın səmərəsizliyi artıq rəsmi şəkildə qeyd olunur. Ermənistanın Azərbaycana təcavüzünün nəticələrini aradan qaldırmaqla bir vaxtlar məşğul olan yeganə təşkilat sayılmasına baxmayaraq, ATƏT-in artıq öz şansını itirdiyi barədə Skopyedə ATƏT Xarici İşlər Nazirliyi Şurasının iclasında ölkəmizin XİN rəhbərinin vurğulaması bunun şəksiz sübutudur.

İllər, daha doğrusu, onillər boyu Azərbaycanın haqlı çağırışlarına məhəl qoymaması fonunda, hər halda ATƏT sədri də bilir ki, onun deklarativ bəyanatlarına indi də rəsmi Bakı tərəfindən məhəl qoyulmayacaq. Yaxşı bilir ki, Azərbaycan torpaqlarının işğalı ilə bağlı məsələlərə otuz ilə yaxın saymazlıq edən bir qurumun, özü də artıq amorf quruma çevrilən bir təşkilatın sədrinin də, özünün də bəyanatları saymazlığa qarşılanmağa layiqdir. Onu da yaxşı bilir ki, ATƏT adlı qurumun fəaliyyətsizliyi, qanunsuzluqlara, erməni vəhşiliklərinə göz yumması, etinasızlığı işğalçı ölkəni illər boyu daha da ruhlandırıb. Çünki həmin o işğalçı ölkə olan Ermənistan ATƏT kimi ikiüzlülük, ədalətsizlik edən bir təşkilatın timsalında mövqesizliyə, yaxud haqsızlığa etinasız mövqeyə arxalanaraq hədsizlik etməkdə, qanunsuzluğa rəvac verməkdə davam edib. Rüsvayçı məğlubiyyətlə qarşılaşan Ermənistanın az qala üç ilə yaxın müddətdə öz qanunsuz silahlılarını, ağır hücum silahları ilə təchiz edilmiş 10 min əsgərini ərazilərimizdə saxlaması da səbəbsiz deyildi, məhz həmin o ruhlandırılma sayəsində idi və onların qisas niyyəti ilə saxlanılmasının özü belə ATƏT kimi ikiüzlülük, ədalətsizlik edən bir təşkilatın timsalında qanunsuzluğa etinasız yanaşılacağına əminlikdən irəli gəlirdi. Deməli, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının mövcudluğundan region sadəcə olaraq, təhlükəsizlik baxımından zərər görməkdə davam edə bilər və əsl reallıq məhz budur. Bu reallıq ölkəmizin XİN rəhbəri tərəfindən Skopyedə ATƏT Xarici İşlər Nazirliyi Şurasının iclasında üstalıqla xatırlandı. ATƏT-in öz şansını itirdiyi barədə fikrini sərt şəkildə ifadə edən XİN rəhbəri Ceyhun Bayramovun dedikləri təşkilatın sədrinin dediklərindən fərqli olaraq, populist, deklorativ bəyanat deyil, reallığı əks etdirən sərt bəyanatdır.

***İnam Hacıyev***



EKSPERT FİKİR BİLDİRDİ

# Dilənçilik gəlir mənbəyidir, yoxsa...

"İstər böyüklərin, istərsə də uşaqların dilənçilik etməsi heç də dünyanın bütün ölkələrində birmənalı qarşılanmır. Bir çox ölkələrdə dilənçilik cinayət sayılmasa da, insanları, xüsusilə də uşaqları dilənməyə məcbur etmək və ya sövq etmək zorakılıq metodlarından istifadə etmək cinayət sayılır. Hansısa ölkədə dilənçilərə, uşaqlara və hətta əlillərə pul vermək qadağan edilib, dilənçilik edənlərə qarşı cinayət məsuliyyətinə cəlb ediləcəkləri barədə ayrıca qərar qəbul edilib. Hansısa ölkədə dilənçilərin küçələrdə insanlardan pul istəmək üçün lisenziya almalı və qeydiyyat rüsumu ödəmələri ilə bağlı tələb qoyulub. Ölkəmizdə isə reallıq bundan ibarətdir ki, ictimai asayişi pozduqları hallarda dilənçilər polis tərəfindən həmin yerdən uzaqlaşdırılmaqla cəzalandırılırlar". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Nadir İsrafilov deyib.

Nadir İsrafilov sözlərinə belə davam edib: "Bizdə bu kimi hallar kütləvi xarakter almasa da küçələrdə əsasən tək qadınlara və seyrək hallarda kişilərə, əksər hallarda qucağında körpəsi və yanında azyaşlı uşaq olan qadınlara və bir çox hallarda isə maşınların hərəkət zolağında və metro keçidlərində sakinlərə əl açan azyaşlılara heç də az təsadüf olunmur. Cəmiyyət üçün ən təhlükəlisi bu üç qrupa daxil olanlardan üçüncüsüdür.

Bir neçə il bundan qabaq Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova da bu məsələyə diqqət çəkmiş küçədə dilənçi uşaqların dilləndirilməsini cəmiyyətimizi, gələcəyimizi təhdid edən bir məsələ kimi dəyərləndirmişdi: "Böyük insanların əlində azyaşlı uşaqlar qazanc vasitəsi kimi istifadə olunur. Onlar hətta öz ata-anaları tərəfindən bu işə cəlb edilirlər. Uşağın hər hansı bir şəkildə əməyinin, özünün istismarı qəbuledilməzdir. Bu konvesiyalara da, bizim milli qanunvericili-



yimiz və mənəviyyat qanunlarımıza da ziddir.

Mən də hesab edirəm ki, hüquq-mühafizə orqanları ilə birgə həmin uşaqların, onların ailələrinin, yaxın adamlarının tapılması və onlarla qanunvericilik çərçivəsində müvafiq iş aparılması, uşaqların hansısa qisminin təhsilə cəlb edilməsi, hansılarınsa dövlət müəssisələrinə yerləşdirilməsi məsələsi diqqət mərkəzində saxlanılmalı, onların psixoloji-reabilitasiya işi təşkil edilməlidir. Diqqət və qayğıdan məhrum olan uşaqlar küçə uşaqlarına çevrilirlər. Onların küçələrdən yığışdırılmasının yeganə yolu isə onların təhsilə cəlb olunmasıdır. Sabiq təhsil naziri, hazırda Azərbaycan Respublikasının İqtisadiyyat naziri Mikayıl Cabbarovun təbirincə desək "Təhsilsiz uşaq itirilmiş uşaqdır, uşağı itirmək isə gələcəyi itirməkdir".

***Ayşən Vəli***

# "Fransanın planları baş tutmayanda Ermənistanı silahlandırmağı seçdi"



"Hər dəfə Ermənistanla Azərbaycan arasında sülh sazişi uzadılanda regiona yeni qüvvələr balansı daxil olur". Bunu SİA-ya açıqlamasında Ankarada fəaliyyət göstərən Qafqaz Strateji Araşdırmalar Mərkəzinin (KAFKASSAM) sədri, politoloq Hasan Oktay deyib.

Onun sözlərinə görə, bölgəyə daxil olan kənar qüvvələr sülhün bərqərar olmasına mane olmaqla prosesi öz maraqlarına uyğun yönləndirməyə çalışırlar: "Bölgədə İran, Rusiya, ABŞ, İngiltərə və Fransa öz maraqlarına uyğun sülh razılaşmasının olmasını təmin etmək üçün hərbi, siyasi və diplomatik fəaliyyətlər həyata keçirirlər. Fransa bir tərəfdən Rusiyanın İran mərkəzli siyasətinə uyğun davranırsa, digər tərəfdən Türkiyəyə qarşı fəaliyyətini açıq şəkildə ortaya qoya bilmədiyi üçün Ermənistan vasitəsilə hərəkət edir. Şərqi Aralıq dənizinin enerji resurslarının Avropaya ötürülməsi ilə bağlı Türkiyə ilə rəqabətdə olan Fransa əvvəlcə Türkiyə-Yunanıstan böhranı yaratdı. Daha sonra iyulun 12-də Tovuz-a hücumla Qafqazda nəzarətli münaqişə yaradaraq Türkiyənin diqqətini Qafqaza yönəltmək istəyirdi.

H.Oktay bildirib ki, Türkiyə və Azərbaycan Fransanın tələbinə alət kimi çıxış etmədən müharibəyə hazırlıq görərək 27 sentyabr-9 noyabr tarixləri arasında keçirilən böyük əməliyyatla bu gərginliyi aradan qaldırıb. Əvvəlcə 7 rayonu, sonra isə Dağlıq Qarabağ işğaldan azad edib: " Fransaya görə, Tovuz hücumu Ermənistanla



Azərbaycan arasında uzunmüddətli müharibə olacaq və Türkiyə bu müharibədə bütün diqqətini Qafqaza yönəldəcəkdi. Fransa isə fürsətdən istifadə edib Aralıq dənizinin şərqində və Afrikada üstünlük əldə edəcəkdi. Planları baş tutmayanda Azərbaycanla sülh imzalanmaq ərəfəsində yeni addım kimi Ermənistanı silahlandırmaq yolunu seçdi. İndi görüləcək ən təcili iş bütün oyunları pozmaq üçün İstanbulda Azərbaycan və Ermənistan arasında üçtərəfli sülhün əldə edilməsidir".

***Rəşid Qarayev***

# Köhnə və yeni erməni riyakarlığı: yaxud ilanın ağına da lənət, qarasına da

***Cinayətkar keçmişi olan Fransanın bu gün öz gözündə tiri görmür, özgə gözündə qıl axtarışı edərək haqq-ədalət və ümumilikdə hansısa azadlıqlar mövzusundan danışacaq ən son dövlət olmalıdır. Belə olmasaydı, nə Paris meriyası, nə də Fransa Senatı həll olunmuş münaqişəni separatçılara dəstək məqsədilə yenidən alovlandırmağa hesablanmış addımlar atmazdı.***



Və yaxın keçmişində müstəmləkəçi olan Fransanın indi hansısa "azadlıqlar"dan danışması absurddur. Çünki əslində, Fransa haqq-ədalət və ümumilikdə hansısa azadlıqlar mövzusundan danışacaq ən son dövlət olmalıdır. Çünki bu ölkənin tarixinə nəzər saldıqda Fransa nəinki Avropa, ümumilikdə dünya dövlətləri içərisində özünün işğalçılıq və müstəmləkəçilik siyasəti ilə seçilib. Yəni, bu, istənilən ölkədə kitablardan oxunması mümkün olan tarixdir. Heç kim bunu Fransaya şər-böhtan kimi demir, yazmır. Fransanın tarix boyu Şimali Afrika, Asiya, hətta Şimali Amerikada törətdiyi soyqırımlar, qırğınlar və apardığı işğalçılıq siyasəti səngiməyib. Bu ölkə müstəmləkəçiliyi ilə seçilib və xüsusən də, Afrikada fransız hərbçilərinin dinc sakinlərə hansı vəhşiliklər etməsi ilə bağlı yüzlərlə fakt mövcuddur. Ötən əsrin əvvəllərinə nəzər saldıqda görərik ki, indi özünə Avropanın demokratik dövləti deyən Fransa Türkiyəni belə parçalamağa çalışırdı, burada ermənilərə dövlət yaratmaq planları var idi. Hər cür murdar əməllərə əl atdılar ki, bu plan reallaşsın. Hətta Fransa ordusunun tərkibində sayı minlərlə olan erməni legionu yaradılmışdı. Dinc sakinlərin, türklərin qırğınına da məhz silahlandırılmış erməni dəstələri səbəb olmuşdu. Əgər ermənilərin özlərinin dediyi kimi, həmin dövrdə etdikləri qələtlərə görə itkilər veriblərsə, bu gün Ermənistan Türkiyədən yox, Fransadan təzminat istəməlidir. Çünki onları qırğınlara təhrik edən, Türkiyəyə qarşı qaldırıb torpaq iddiasına salan Fransa idi. Və bu gün Fransa Senatının sədri Jerar Larşenin qərəzli və birtərəfli açıqlamaları onun ölkəsinin Minsk qrupu həmsədri kimi üzərinə götürdüyü öhdəliklərlə qətiyyən uzlaşmır. Ən maraqlısı isə Senatın sədri öz açıqlamalarında bir tərəfdən Minsk qrupunun fəaliyyətinin yenidən canlandırılmasına, onun işinə yeni impuls verilməsinə çağırış edir, digər tərəfdən isə açıq ermənipərəst və anti-Azərbaycan, anti-Türkiyə mövqe nümayiş etdirir. Və Fransa Senatı və Milli Assambleyasının Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki separatçı rejimin tanınması ilə bağlı qəbul etdiyi qərarları da unutmamışıq. Bizi ən çox narahat edən məqam bu cür qərəzli addımların tərəfdaş hesab etdiyimiz ölkə tərəfindən atılmasıdır. Ən maraqlısı isə, gələn il Azərbaycanla Fransa arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi qeyd olunacaq. Belə bir məqamda Fransanın Avropa və Xarici İşlər Nazirliyinin dövlət katibi Jan Batist Lömuan Ermənistanda səfəri zamanı Türkiyədə və "artsax"da "erməni mədəniyyətinin izləri"nin silinməsindən bəhs etməsi, sadə dillə desək, siyasi ciddiyyətdən uzaqdır. Bu təəccüb də doğurmur, çünki xisləti, əqidəsi budur.

Necə deyərlər: ilanın ağına da lənət, qarasına da. Baxın, Azərbaycan Fransada dünya mədəni irsinin nümunələrinin qorunması və bərpasına dəyərli töhfələr verib. Bu faktların fonunda Fransa senatı sədrinin açıqlamaları Azərbaycan xalqının bu ölkəyə onsuz da kövrək olan etimadını bir qədər də sarsıtmaqla yanaşı həm də postkonflikt dövründə iki xalq arasında qarşılıqlı dialoq mühitinin formalaşmasına, davamlı sülh və sabitlik formulunun tapılması səylərinə də ciddi zərbədir. Azərbaycan 44 günlük müharibə nəticəsində öz ərazi bütövlüyünü bərpa edib. Fransanın da həmsədri olduğu ATƏT-in Minsk qrupunun 30 il ərzində təmin edə bilmədiyi sülhə nail olduğunu göstərdi. Əgər Fransa Senatının sədri həqiqətən tərəfsiz və ədalətli olmaq niyyəti güdmüş olsa idi, səfərini təkcə Ermənistana deyil, rəsmi erməni separatçılarına deyil, həm də Azərbaycana da rəsmi səfərə gələrdi, işğaldan yenicə azad olunmuş ərazilərimizdə 30 il ərzində Ermənistan tərəfindən törədilmiş vandalizm və barbarlığı, bu gün "Qafqazın Xiroşiması" adlandırılan Ağdam şəhərini öz gözləri ilə görmüş olardı.

Nə edirlərsə etsinlər məqsəd bəllidir: qərəzli və birtərəfli mövqe nümayiş etdirmək. Ancaq Fransa Senatı heç bir fakta əsaslanmadan Dağlıq Qarabağda erməni mədəni irsinin guya dağıdıldığı iddiası ilə çıxış edir. Çünki 90-cı illərdə və sonrakı dövrdə girov götürülmüş azərbaycanlıların taleyi heç vaxt Fransa siyasətçilərinin diqqətini çəkməyib. Ancaq Azərbaycan ərazisində terror törətməyə cəhd edən erməni diversantların qaytarılması ilə bağlı hüquqi əsası olmayan iddialarla çıxış ediblər. Əgər belə olmasaydı, Fransa minalanmış ərazilərin xəritələrinin verilməsi ilə bağlı bu günə qədər bir təşəbbüs irəli sürərdi, acaq təəssüf ki, belə bir addım atılmayıb. Və bu gün Azərbaycan haqlı olaraq ATƏT-in Minsk Qrupunun 3 həmsədrindən biri olan Fransadan balanslaşdırılmış, ədalətli mövqe gözləmir, bunu Fransa rəsmilərinin açıqlamaları bir daha göstərir. Çünki Fransa Azərbaycan və Ermənistan arasında əlaqələrin bərpasında, davamlı sülhün təmin edilməsində maraqlı deyil. Və Fransa Senatının sədrinin Ermənistanda verdiyi açıqlamalar Azərbaycan xalqlarının bu ölkəyə onsuz da kövrək olan etimadını daha da zəiflədir.

Belə olan halda, əgər ermənilər bundan sonra da dövlət kimi mövcud olub yaşamaq istəyirlərsə, bizim keçdiyimiz son dərslərdən sonra ağıllarını başlarına yığmalıdırlar. Fransanın və digər onun kimi fitnəkar dövlətlərin "fətva"sına getməsinlər. Çünki nə Paris meriyası, nə də Fransa Senatı həll olunmuş münaqişəni separatçılara dəstək məqsədilə yenidən alovlandırmağa hesablanmış addımlar atmazdı və onlara məsləhət görürük ki, Ermənistana "məsləhətlər" verməkdənsə, bu günə kimi etmədikləri "əsl demokratiya" nümunəsini göstərsinlər.

ŞƏRH EDİLDİ

# TƏBİB: hər vətəndaşın təbibi

**_Ötən ay Mərkəzi Neftçilər Xəstəxanasına icbari tibbi sığorta ilə müayinə olunmaq üçün yollanmışdım. Burada TƏBİB tərəfindən (Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi), sözün həqiqi mənasında, icbari tibbi sığorta prosedurunun sistemli şəkildə tətbiq edildiyinin, əhalinin ayrı-ayrı xidmətlərdən yüksək səviyyədə istifadəsinin şahidi oldum._**




Lazımı tibbi xidmətdən istifadə edib bir vətəndaş məmnunluğu ilə xəstəxanadan ayrılarkən yolboyu xəyalən 2012-ci ilə qayıtdım. Həmin il Türkiyənin Ərzurum vilayətinə, Atatürk Dövlət Araşdırma Xəstəxanasına müayinə üçün getmişdim. O vaxtadək ölkəmizdə artıq 1999-cu ildə “Tibbi sığorta haqqında” Qanun qəbul olunmuşdu. Lakin hələlik icbari tibbi sığortanın tətbiqinə başlanmadığı üçün bu sistemlə 11 il əvvəl ilk dəfə elə orada tanış olmuşdum.

Növbə gözləyərkən həmsöhbət olduğum ərzurumlulardan tibbi sığortadan rahat şəkildə istifadə etdiklərini, 2003-cü ildən səhiyyə xidmətlərinin onlar üçün əlçatanlığından çox məmnun qaldıqlarını dinlədikcə bütün bunları tezliklə ölkəmizdə də görmək arzusu bir vətəndaş qayəsi ilə ürəyimə hakim kəsildi. Elə o an düşündüm ki, bizdə də olacaq, həm də keyfiyy-



ətcə bundan qat-qat artığı olacaq. Çünki o vaxt ölkəmizin müstəqilliyinin cəmi 21, Türkiyənin müstəqilliyinin isə 90-dək yaşı var idi. Həm də biz bu 21 ilin əvvəlində sovet ittifaqının əsarət zəncirlərini qıraraq, xaos, anarxiya içərisində olan ölkəmizin dağılmış iqtisadiyyatı üzərində dirçəlməyə başlamışdıq.

Yaranmasının 5, fəaliyyətə başlamasının isə cəmi 3 ili əhatə etməsinə baxmayaraq artıq hər bir vətəndaşın ümid yeri-təbibi olmağı bacaran TƏBİB-in icbari tibbi sığorta sistemində həyata keçirdiyi çeviklik və keyfiyyət amili fonunda səhiyyəmizin dünəninə və bu gününə nəzər salıb, TƏBİB-in yaranma səbəbindən danışaq.

## İki ictimai-iqtisadi formasiya görən xalq kimi

1918-ci ildə olmazın əzabəziyyəti ilə qazandığımız müstəqilliyimiz zorla, güc tətbiqi ilə əlimizdən alınandan sonra SSRİ-nin tərkibində yeni bir ictimai-iqtisadi formasiya-sosializm bizi qoynuna aldı. Bu yeni quruluş nə az, nə çox, düz 70 il xalqın həyatına hakim kəsildi. Həmin dövrdə ölkəmizdə səhiyyə xidmətləri dövlət hesabına həyata keçirilsə də, lakin həkimin “hörməti” prosesi hər bir tibb ocağında mövcud idi. Bu, gizli deyil, açıq şəkildə ifadə olunurdu və korrupsiya həddinə çatmışdı. “Hörmət” etməyə imkanı olmayanlar isə səhiyyə xidmətlərindən bəzən yetərli qədər, bəzənsə əsla istifadə edə bilmirdilər. Beləliklə də səhiyyənin imkanları hər vətəndaş üçün əlçatan deyildi.

1969-1982-ci illərdə Azərbaycanda hakimiyyətə gələn Ümummilli Lider Heydər Əliyev ölkə səhiyyəsində yaranan çoxsaylı problemlərin, əsasən korrupsiyanın qarşısını böyük məharətlə alsa da, Moskvaya qayıdandan sonra ölkə səhiyyəsi əvvəlki vəziyyətə geri döndü.

1991-ci ildə müstəqilliyimizi bərpa edəndən və 1993-cü ildə xalqın təkidi ilə Heydər Əliyev yenidən hakimiyyətə gələndən sonra həm də yeni bir ictimai-iqtisadi formasiyaya daxil olduğumuz üçün sovet dövründən qalma köhnəlmiş və problemlər içərisində çabalayan səhiyyə sistemində də yeniliklərə ehtiyac duyuldu. Sonralar səhiyyənin sovet quruluşundakı kimi dövlət hesabına həyata keçirilməsini, belə olarsa, icbari tibbi sığortaya ehtiyacın olmadığını iddia edənlər, bunu hətta Norveç və İngiltərə kimi dövlətlərin nümunəsində göstərənlər də oldu. Lakin bu, hələlik Azərbaycanın imkanları daxilində deyildi. Öncə müasir standartlara cavab verəcək səhiyyə sistemi qurmaq lazım idi.

Hər iki ictimai-iqtisadi formasiyanın xarakterik cəhətlərini çox dəqiqliklə analiz edən Ümummilli Liderimiz xalq üçün elə bir səhiyyə sisteminin formalaşdırılmasını istəyirdi ki, bu, həm keyfiyyətli, həm də hər bir vətəndaş üçün əlçatan olsun. Elə bu məqsədlə də hakimiyyətinin ilk illərində “Tibbi Sığorta haqqında” qanun qəbul olunmuşdu. Çünki Ulu Öndər dünya təcrübəsində, hətta bəzi keçmiş SSRİ dövlətlərində geniş yayılmış icbari tibbi sığortanın əhəmiyyətini bilirdi və bunun ölkəmizdə də həyata keçirilməsini qarşıya məqsəd kimi qoymuşdu. Beləliklə ölkə səhiyyəsinin inkişafı üçün mühüm addımlar atıldı. Dövlət səhiyyə müəssisələrinin maddi-texniki bazası gücləndirildi, ixtisaslı həkim kadrların yetişdirilməsi üçün onların xaricdə təhsilinə şərait yaradıldı.

Müstəqillik illərində Azərbaycan səhiyyəsində əsaslı islahatlar həyata keçirildi. Heydər Əliyevin qanunvericilik təşəbbüsü ilə Milli Məclisdə qəbul edilən qanunlar mükəmməl səhiyyə qanunvericiliyini formalaşdırmaqla yanaşı, islahatların da uğurlarını təmin etdi. Rəqabətin inkişafa təsiri əsas götürülərək ölkədə özəl səhiyyə müəssisələrinin inkişafına şərait yaradıldı.

Ümummilli Liderin sosial siyasəti ötən 20 ildə Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdi¬rilir. 2004-cü ildən bəri respublikamızda 750-dən çox tibb müəssisəsinin tikilməsi və ya əsaslı şəkildə təmir edilməsi, ən əsası isə TƏBİB-in yaradılması ilə icbari tibbi sığortanın fəaliyyətinə start verilməsi səhiyyənin inkişafı istiqamətində görülən işlərin möhtəşəmliyini göstərir.




## İcbari tibbi sığorta- insanların bir-birinə yardımı

Ölkə səhiyyəsində bir yenilik olan icbari tibbi sığortanın tətbiqi həm də Azərbaycan xalqının mental dəyərlərinə əsaslanan bir faktordur. Xalqımız tarixən bir-biri ilə yardımlaşan, həm sevincli, həm kədərli günlərini paylaşan, hansısa bir işdə bir-birinə kollektiv şəkildə kömək edən xalq olub. İcbari tibbi sığortanın özündə sosial həmrəylik, yardımlaşmaq, kömək etmək prinsiplərini əks etdirməsi xalqımızın bu gözəl dəyəri ilə üstüstə düşür. Bunu bir vətəndaşın illərlə sığorta haqqı ödəməklə heç xəstələnmədiyi təqdirdə onun yardımından başqa vətəndaşların istifadəsində, sağlamlığına qovuşmasında görürük.

Beləliklə də bu ali dəyərləri özündə birləşdirən və səmərəlilik, şəffaflıq və keyfiyyət prinsipləri əsasında fəaliyyət göstərən qurumun tətbiqi məqsədilə 2007-ci ildə Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi yaradıldı, 2008-ci ildə “Tibbi sığorta haqqında” Qanuna müəyyən əlavə və dəyişikliklər olundu, onun tətbiqi istiqamətində daha aktiv addımlar atıldı və 2016-cı ilin dekabrında agentliyin strukturu təsdiq edildi. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli Fərmanına əsasən ”Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxs (TƏBİB) yaradıldı. Fərmanın icrası məqsədilə 12 aprel tarixində Azərbaycan Respublikasının Nazirlər Kabineti TƏBİB-in tabeliyindəki tibb müəssisələrinin siyahısının təsdiq edilməsi barədə qərar qəbul etdi. Əsas vəzifəsi icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar tibb müəssisələrinin idarəedilməsini və bu sahədə nəzarəti həyata keçirmək olan TƏBİB 2020-ci ilin yanvar ayından fəaliyyətə başladı.

İcbari və könüllü şəkildə həyata keçirilən icbari tibbi sığorta dövlət sosial sığortasının tərkib hissəsi olmaqla bərabər, həm də əhalinin uyğun həcmdə tibbi və dərman yardımı almasına təminat verən sığorta növüdür. Üstün və fərqli cəhəti səhiyyəyə sərf edilən vəsaitlərin səmərəli cəmləşdirilməsi, bu sahəyə əlavə maliyyə vəsaitlərinin cəlb edilməsi, dövlət vəsaitlərinin səmərəli istifadə edilməsi olan icbari tibbi sığorta sistemində məqsəd əhaliyə müasir və keyfiyyətli səhiyyə xidmətlərinin göstərilməsi, bütün tibbi xidmətlərə əlçatanlığın təmin edilməsidir. Nəticədə icbari tibbi sığorta sağlam həyata, xəstəliklərin vaxtında aşkarlanmasına, müalicəsinə, yüksək vəsait xərcləmədən sağlamlığımıza qovuşmağımıza hesablanmış sistemdir.

## TƏBİB pandemiya dövründə və bu gün

2020-ci ilin əvvəlindən etibarən icbari tibbi sığortanın mərhələli şəkildə bütün ölkə ərazisində tətbiqi nəzərdə tutulsa da, COVİD-19 infeksiyasının dünyada və ölkədə yaratdığı fövqəladə durum prosesin icrasında fasilənin yaranmasına və daha təxirəsalınmaz məsələlərin həllinin ön plana çıxmasına səbəb oldu. Səhiyyə Nazirliyi və TƏBİB başda olmaqla, bütün müvafiq dövlət qurumları pandemiya ilə mübarizəyə başladı.

Biz TƏBİB-i icbari tibbi sığortanı ölkədə həyata keçirən qurumdan əvvəl pandemiya ilə fəal mübarizəçi kimi tanıdıq. Və TƏBİB-in həmin vaxt mükəmməl fəaliyyətini hər bir ölkə vətəndaşı təsdiq edə bilər. Əgər pandemiya araya düşməsəydi, TƏBİB indiyədək əldə etdiklərindən daha çox uğur əldə edə bilərdi.

Hazırda ölkədə TƏBİB-n nüfuzu günü-gündən artmaqdadır. Çünki o, hər bir vətəndaşın təbibi olmağı bacardığını əməli işi ilə sübut edir. Xəstəxanalarda göstərilən tibbi xidmətlər, əhalinin maarifləndirilməsi, kütləvi şəkildə bu xidmətlərdən istifadə etməsi, tək şəxsiyyət vəsiqəsi ilə heç bir əziyyət çəkmədən-sistemli şəkildə müayinələrdən keçməsi və buna TƏBİB əməkdaşlarının nəzarəti vətəndaş məmnunluğunu yaradan amillərdir. Elə bütün bunların nəticəsidir ki, cari ilin ilk 9 ayı ərzində dövlət tibb müəssisələrinə 4,2 milyon şəxs 16 milyondan çox müraciət edib. Dövlət tibb müəssisələrinin əhaliyə göstərdiyi xidmət sayı 50 milyondan artıq olub. İlin sonuna qədər tibb müəssisələrinə 5 milyondan çox əhalinin müraciəti gözlənilir.

Təbib tərəfindən işin əhatəli qurulmasının nəticəsdir ki, cari ilin 8 ayı (yanvar-avqust) ərzində özəl tibb müəssisələrində vətəndaşlar sığorta çərçivəsində 100 mindən çox tibbi xidmətdən yararlanıb. Agentliyin müqavilə bağladığı özəl klinikalarda əsasən ürək-damar, ümumi cərrahiyyə uroloji, travmatoloji, oftalmoloji, neyrocərrahiyyə, lor, koxlear implantasiya və endoprotezləşdirmə əməliyyatları icra olunub ki, vətəndaşlar vaxtilə aid xəstəliklərin müalicəsinə ya külli miqdarda vəsait xərcləməli, ya da imkansızlıqdan vəfat etməli idi.

Dövlət bu sahənin inkişafına böyük diqqət və qayğı göstərir. Bu məqsədlə dövlət büdcəsindən növbəti ildə də icbari tibbi sığortanın tətbiqinin təkmilləşdirilməsi, inkişaf etdirilməsi məqsədi ilə 1,4 milyard manata yaxın vəsaitin ayrılması nəzərdə tutulur. Bu sahə inkişaf etdikcə Xidmətlər Zərfinə daxil olan tibbi xidmət növləri də artırılır. Əgər ilk mərhələdə tibbi



xidmət 2500-ə yaxın idisə, indi bu, 3000-dən artıqdır və gələcəkdə daha da artırıla bilər.

Fondun vəsaitinə gəlincə isə məlumata əsasən bunun 17 %-i təqribən 1.7 milyon vətəndaşın ödədiyi sığorta haqları hesabına formalaşır. Qalan əhali üçün bütün səhiyyə xərcləri dövlət büdcəsindən ödənilir. Bu da dövlətimizin insan amilinə verdiyi dəyərin göstəricisidir.

İcbari tibbi sığorta ilə bağlı insanlarla söhbətimiz zamanı bu qənaətə gəlmək olur ki, onların TƏBİB-ə ümidi böyükdür. Bu ümidi reallaşdıran amil isə bundan sonra da tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir tibbi avadanlıqlarla təchizatının yaxşılaşdırılması, kadr potensialının gücləndirilməsi istiqamətində aparılan işlər ola bilər. Yaranmasının 5-ci ildönümü münasibəti ilə TƏBİB kollektivini təbrik edir, hər bir vətəndaşın təbibi olduğunu təqdir edirik.

**_Mətanət Məmmədova_**

_Məqalə, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB), Medianın İnkişafı Agentliyi və Azərbaycan Mətbuat Şurasının “Bir ömür xidmətinizdə...” mövzusundakı birgə müsabiqəsinə təqdim edilir._

TƏHLİL

# Müstəqilliyimiz əbədidir



*Ümummilli Lider Heydər Əliyevin irsində, dövlətçilik ənənəsində müstəqil dövlət quruculuğu istiqamətində görülən işlər mühüm yer tutur. Ümummilli Liderin dövlətçilik düşüncəsinin əsasını müstəqillik ideyası təşkil edir. O, müstəqilliyin ali məqsədi kimi milli-mədəni və mənəvi dəyərlərin bərpa olunmasına, xalqımızın özünüdərkinə, öz mənliyinin sahibi olmasına fədakarlıqla, vətəndaş hünəri ilə çalışırdı. O, yalnız siyasi və iqtisadi deyil, həm də mədəni-mənəvi istiqlal uğrunda da əzmlə mübarizə aparırdı.*

Təhlil

Ulu öndərin qətiyyətinin və xalqa, dövlətə, dövlətçiliyə sədaqətinin nəticəsidir ki, biz bərpa etdiyimiz dövlət müstəqilliyinin ikinci dəfə əldən getməsi təhlükəsindən xilas olduq. Ulu öndərin siyasi müdrikliyi gənc və müstəqil Azərbaycanın qısa müddət ərzində regionda və bütün dünyada dostlarını və tərəfdaşlarını artırdı, cəbhədə atəşkəsə, ölkə daxilində siyasi sabitliyə, iqtisadiyyatın tənəzzüldən çıxarılmasına nail oldu. Ümummilli lider çox yaxşı bilirdi ki, müstəqilliyi qorumaq, iqtisadiyyatı dirçəltmək, xalqın rifahının yaxşılaşdırılmasına nail olmaq üçün ilk növbədə ölkənin təbii sərvətlərindən, eləcə də respublikamızın geosiyasi mövqeyindən bəhrələnmək lazımdır. Çünki həmin illərdə Azərbaycan çox böyük sınaqlar qarşısında idi.

Doğrudur, tarixçilər bu fikirdədilər ki, Azərbaycanın dövlət müstəqilliyinin qorunması üçün atılan ən böyük addım Heydər Əliyevin Naxçıvandan Bakıya dəvət edilməsi idi. Ancaq ulu öndərin özü dönə - dönə qeyd etmişdir ki, biz "Əsrin müqaviləsi"nə nail olmaqla təkcə böyük məbləğdə iqtisadi imkan əldə etmədik, həm də gənc və müstəqil dövlətimiz üçün çox böyük siyasi dayaq qazandıq ki, məhz bu da bizim suverenliyimizin, müstəqilliyimizin əbədiləşdirilməsinin təməlini qoydu.

Ulu Öndər fenomen şəxsiyyət idi. O, siyasətdən danışanda müsahibini dərin məntiqi ilə məftun edir, iqtisadiyyatdan söhbət açanda bu sahənin ən görkəmli mütəxəssislərini belə heyran qoyur, tarixdən, ədəbiyyatdan, mədəniyyətdən, elmdən bəhs edəndə dinləyicilərin qəlbinə hakim olurdu.

Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin modelini qurmuş və möhkəm siyasi-ideoloji əsaslarını yaratmışdır. Azərbaycan Respublikasının dövlət ideologiyası olan Azərbaycançılıq təlimi Heydər Əliyev tərəfindən müəyyən edilmişdir. Millilik, dövlətçilik, müstəqillik və dünyəvilik görkəmli dövlət xadiminin dövlətçilik ideologiyasının əsaslarını təşkil edirdi. Azərbaycan dili, Azərbaycan xalqı və müstəqil Azərbaycan dövlətçiliyi anlayışlarından hər biri Heydər Əliyev tərəfindən müəyyən edilmiş Azərbaycançılıq ideologiyasının əsas atributlarındandır.

Ümummilli liderin xidmətlərindən bəhs edərkən bu gün ölkənin ictimai – siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının yaradılmasını xüsusi qeyd etməliyik. Xalqın istəyi ilə yaradılan bu partiya dövlətə, xalqa xidməti fəaliyyətinin əsas istiqaməti kimi qəbul etmişdir. Partiya qısa zamanda xalqın sevgisini qazandı. Dahi şəxsiyyət Heydər Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası xalqın partiyasıdır. Partiyanın tarixinə yazılan qələbələr ulu öndər Heydər Əliyevin ideyalarına sədaqətin, Prezident İlham Əliyevin siyasətinə inamın təsdiqidir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Heydər Əliyev şəxsiyyətini dəqiq müəyyən edib: "Heydər Əliyev kimi böyük bir tarixi simanın irsinin öyrənilməsinə üç başlıca mövqedən – Onun xalqına və ölkəsinə sonsuz sədaqət nümunəsi olan vətəndaş, qüdrətli şəxsiyyət və dövlət xadimi, nəhayət, bütün dünyada şəksiz lider kimi tanınması mövqelərindən yanaşmaq lazımdır".

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı, dövləti qarşısındakı xidmətlərini sözsüz ki, bir yazı çərçivəsində əhatə etmək qeyri-mümkündür. Ümummilli liderin xidmətləri ilə bağlı çoxlu sayda kitablar yazılıb və yazılmaqdadır. Azərbaycanın hər bir uğuru ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Ötən illər ərzində Azərbaycan xalqı ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinə sadiq qalmış və onu inkişaf etdirmişdir. Bunun nəticəsi olaraq 2020-ci ildə 44 günlük müharibə dövründə biz Azərbaycan xalqının necə vahid bir gücə çevrildiyinin və böyük əzm ilə Müzəffər Orduya rəhbərlik edən Cənab Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşərək "Dəmir Yumruğa" çevrildiyinin şahidi olduq.



Zaur Muradov
Yeni Azərbaycan Partiyası İsmayıllı rayon təşkilatının sədri

Ölkə başçısı cənab İlham Əliyev Xankəndidə Azərbaycan bayrağını ucaltmaqla 8 noyabr, 19 sentyabr və nəhayət, 15 oktyabr zəfərləri ilə yeni siyasi mərhələnin əsasını qoydu: "Azərbaycan işğal, məğlubiyyət tarixinin səhifəsini çevirdi. İlham Əliyevin siyasi uzaqgörənliyi, böyük strateq kimi məharəti, sərkərdə kimi qətiyyəti, bacarığı ilə Azərbaycan yüz illik bu qeyri-bərabər savaşda ən böyük və qəti qələbəsini qazandı. Prezident İlham Əliyev o nadir şəxsiyyətlərdəndir ki, strateji dühası ilə tarixi yenidən yazmağa, başqalarının Azərbaycan üçün yazdığı tarixi pozmağa müvəffəq oldu. Dövlət başçısı kimi son iyirmi ildə Azərbaycanı getdikcə güclənməkdə olan geosiyasi burulğanlardan qoruyaraq, dövləti gücləndirərək daxili sabitliyi, milli həmrəyliyi, müdafiə potensialını möhkəmləndirərək ölkəmizi xarici müdaxilələrdən qorudu. İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin nailiyyətlərini inkişaf etdirərək Azərbaycanın dinamik inkişaf edən ölkə səviyyəsinə çatmasına və milli hədəflər uğrunda birləşməyi bacaran cəmiyyətin formalaşmasına nail oldu".

Prezidentimiz bir daha bütün dünyaya sübut etdi ki, nəyi necə və nə zaman etməyi hamıdan yaxşı bilir. Xalqın inamını hər zaman hiss edən Prezidentimiz 15 oktyabrda Xankəndidə Azərbaycan bayrağını ucaltmaqla müstəqillik tariximizin ən böyük uğuruna imza atdı.

Hər keçən gün Heydər Əliyevin dahiliyi, Azərbaycan xalqına bağlılığının bir daha şahidi oluruq. Heydər Əliyev irsi əbədiyaşar, tükənməz bir irsdir, xəzinədir. O xəzindən istifadə edərək biz Şuşa zəfəri kimi bir zəfər qazanmağa nail olduq. Azərbaycan xalqı həmişə o irsdən faydalanacaqdır. Faydalandıqca zəfər və uğur qazanacaq. Son olaraq onu demək istəyirəm ki, Heydər Əliyev Azərbaycanın özüdür. Azərbaycan deyəndə Heydər Əliyev, Heydər Əliyev deyəndə Azərbaycan yada düşür.

Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında qeyd edildiyi kimi "Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir".

# "Onları nə torpaq, nə Vətən, nə də dövlət məsələləri düşündürür"

MÜNASİBƏT

***"Milli Şura və onun üzvləri indiyə qədər Azərbaycanda aparılan heç bir işə müsbət münasibət bildirməyiblər. Səbəb ondan ibarət deyil ki, bu işlər müsbət deyil. Səbəb Milli Şura üzvlərinin Azərbaycanda ancaq bir rəng və bu rəngin də qara olduğunu görməsidir". Bu sözləri SİA-ya açıqlamasında deputat Mahir Abbaszadə deyib.***

Deputat sözlərinə belə davam edib: "Onlar o qədər beyinləri zəhərlənmiş vəziyyətdədirlər ki, ölkəmizdə bütün sahədə aparılan islahatlardan və müsbət hadisələrdən heç vaxt nəticə çıxarmayıblar. Heç Vətən müharibəsi dövründə belə siyasi partiyalar cənab Prezidentimizi dəstəkləməklə bağlı imzalanmış sənədə öz müsbət imzalarını atmamışdılar. Belə görünür ki, Tofiq Yaqublunun dediyindən fərqli olaraq onları nə torpaq, nə Vətən, nə də dövlət məsələləri düşündürür. Onları düşündürən yalnız öz şəxsi mənafeləridir. Çünki əgər Azərbaycan 30 il müddətində işğal altında olan torpaqları geri qaytarırsa, əgər Azərbaycan məcburi köçkün həyatı yaşamış insanları öz dədə-baba torpaqlarına yollayırsa, Azərbaycan dövləti bütün gücünü toplayaraq ilk dəfə olaraq ölkənin bütün ərazisində Azərbaycanın ərazi bütövlüyünü bərpa edirsə, deməli bu bütün Azərbaycan xalqının mənafeynə cavab verir. Belə olduğu halda, yəni xalq ölkə rəhbərini dəstəklədiyi təqdirdə Milli Şurada yığışmış bir dəstə vətən xainləri bu məsələlərin üstündən keçərək yalandan ölkədəki digər porblemləri qaldırmaqla məşğuldurlar.

Əslində, ölkəmizdə mətbuata heç bir təzyiq yoxdur. Cənab Prezidentin sərəncamına əsasən ölkədə agentlik yaranıb. Bu agentlik Azərbaycanda fəaliyyət göstərən bütün mətbuata öz müsbət münasibətini bildirməkdədir. Mətbuata istər maddi, istər mənəvi dəstək göstərilir. Bütün bunlar Azərbaycan dövlətində fikir plüralizminin və vətəndaş cəmiyyətinin formalaşmasında müsbət rol oynamaqdadır. Azərbaycan hüquqi dövlətdir və ölkəmizdə hər bir şəxs hüquq qarşısında bərabərdir. Hər kəs hüquq qarşısında cavab verməlidir. Azərbaycanda qanunlardan sui-istifadə etmək olmaz. Tofiq Yaqublu kimi insanların indiyə qədər heç bir fikri öz əksini tapmayıb. Düşünürəm ki, bu fikirlər Milli Şurada təmsil olunmuş milli düşmənlərin Azərbaycana qarşı olan fikirləridir. Bu adamlar heç vaxt fikirlərindən dönməyəcəklər. Çünki bunların gördükləri rəng ancaq qaradır".

Xatırladaq ki, ötən gün Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Tofiq Yaqublu: "Repressiya qol-qanad açıb, həbslərin ardı-arası kəsilmir. Yazıb çatdırmaq da olmur. Səbail rayon polis idarəsinin yarımaskalı əməkdaşları indi də Kanal13-ün ofisində axtarış aparırlar. Böyük ehtimalla qardaşım Əziz Orucova qarşı yeni cinayət işi açılıb. İndiyədək heç vicdanımıza qarşı çıxmadıq: Nə Qarabağ müharibəsi zamanı və sonra Azərbaycanın beynəlxalq hüquqa uyğun mövqeyini dəstəkləyəndə, nə ölkədə insan hüquqları pozulmasına qarşı mübarizə aparanda. Daima Vətənimiz üçün ən yaxşısını istədik. Günahımız budur yəqin ki...



P.S. Əzizi aparanda böyük qızı Almaz buraxmırmış. Uşaq da bilir ki, atasını aparanlar necə naxələflərdir" deyə sosial şəbəkə hesabında paylaşım etmişdi.

**Ayşən Vəli**

# Rusiyalı ekspert: “Ermənistan öz ambisiyalarına görə Zəngəzur dəhlizindən kənarda qalır”







*Rusiyalı politoloq, Xəzər regionunun geosiyasəti üzrə ekspert, “Kaspiyskiy vestnik” (Xəzər bülleteni) portalının redaktoru Vladislav Kondratyev “Caliber” analitik mərkəzinə müsahibəsində regionda gedən prosesləri və baş verən hadisələri şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.*



**- Dekabrın 5-də Moskvada Xəzəryanı dövlətlərin: Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistanın xarici işlər nazirlərinin görüşü planlaşdırılır. Nazirlərin görüşü nəyə həsr olunacaq, hansı məsələlər müzakirə olunacaq?**

- 2022-ci ildə Türkmənistanın paytaxtında keçirilmiş sonuncu Xəzər sammitinin yekunlarına əsasən, mövqelərin və birgə sənədlərin işlənib hazırlanması prosesinin əlaqələndirilməsi məqsədilə Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin hər il bir araya gəlməsi barədə razılıqlar əldə olunub. Yeri gəlmişkən, onların əksəriyyəti artıq hazırlanıb və hazırda müxtəlif istiqamətlər üzrə təsdiqlənmə prosesindən keçir. Türkmənistan Xarici İşlər Nazirliyinin rəhbəri Rəşid Meredovun bu yaxınlarda Xəzər Dənizi Günündə etdiyi çıxışında bu mövzuya- keçən il sammitdə əldə olunmuş razılaşmaların həyata keçirilməsinin zəruriliyinə toxunulub.

Türkmənistan tərəfinin fikrincə, hazırda ekoloji problemləri, Xəzər dənizinin dayazlaşması məsələlərini, bunun regiondakı vəziyyətə necə təsir etdiyini, iqtisadi əməkdaşlıq, Xəzəryanı dövlətlərin iqtisadi fəaliyyətlərini müzakirə etmək xüsusilə vacibdir. Əvvəllər xarici işlər nazirlərinin belə görüşləri regional dövlətlərin birgə sammitlərindən dərhal əvvəl baş tuturdu. Lakin beştərəfli əməkdaşlığın intensivləşdirilməsinin yeni mərhələsinin gəlməsi ilə bu görüşlərin mütəmadi keçirilməsi qərara alındı. Bu, Xəzəryanı dövlətlərin mövqeyinin əlaqələndirilməsi üçün mühüm müsbət hadisədir və son dövrdə Xəzəryanı ölkələr arasında dialoqun səmərəliliyini qiymətləndirməyə imkan verir.



**- Keçən ay ABŞ dövlət katibinin köməkçisi O`Brayen Mərkəzi Asiyadan Xəzər dənizi ilə ixrac marşrutunun əhəmiyyətindən danışdı, həmçinin Zəngəzur dəhlizinin Ermənistan üzərindən çəkilməsinə çağırdı. ABŞ niyə birdən-birə Mərkəzi Asiya ölkələrindən və onların ehtiyaclarından narahatdır? Zəngəzur dəhlizi ABŞ-a nə üçün lazımdır?**

- ABŞ uzun müddətdir ki, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TİTR) yaradılması üçün lobbiçilik edir və hətta deyərdim ki, bu cür tranzit kommunikasiyalarının yaradılması onların maraqlarına uyğundur. Xüsusən də Mərkəzi Asiyada, çünki amerikalılar əmindirlər ki, bu, həmin ölkələri Rusiyanın təsirindən çıxarıb öz təsirinə keçirməyə kömək edəcək. Onlar hesab edirlər ki, iqtisadi əlaqələrin gücləndirilməsi və iqtisadi artımın artması ölkələrin müstəqilliyinin möhkəmlənməsinə və onların güclü himayədarlardan qopmasına təsir edir. Üstəlik, bu, ABŞ-ın öz şəxsi şirkətlərini və Amerika biznesini yükdaşıma sahəsinə cəlb etmək maraqları ilə birbaşa bağlıdır.

Zəngəzur dəhlizi Transxəzər dəhlizinin inkişafı variantlarından biridir və onu maraqlı edən də budur. Çünki indi Cənubi Qafqazdan Avropaya yeganə çıxış yolu Bakı-Tbilisi-Qars avtomobil yoludursa, Zəngəzur dəhlizi ilə yüklərin daşınması imkanları xeyli genişlənir. Türk Dövlətləri Təşkilatının son sammiti göstərdi ki, onun üzvləri Orta Dəhlizinin imkanlarını genişləndirməklə məşğuldur və vaxtaşırı bu mövzuda “saatların sinxronlaşdırılması” həyata keçirilir.

**- Rusiya Transxəzər dəhlizinin perspektivlərinə necə baxır? Rusiya niyə Zəngəzur dəhlizində maraqlıdır?**

- Bir tərəfdən, Moskvanın Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna (TBNM) münasibəti qətidi- əgər layihə Rusiyadan keçməyi nəzərdə tutmursa, onu öz ərazisindən malların tranzitindən gəlir əldə etmək imkanından məhrum edir, ona görə də onun üçün sərfəli deyil və əvvəllər Rusiya ərazisindən keçən marşrutlarla ciddi rəqabət yaradır. Digər tərəfdən, Moskva da başa düşür ki, 2022-ci ildən sonra tərəfdaş ölkələr öz mallarını Avropaya daşımaq üçün sabit, etibarlı yollar axtarırlar. Əks halda, onlar da sanksiya təzyiqinə məruz qala bilərlər.

Eyni zamanda, Rusiyanın da Orta Dəhlizdə öz marağı var, o, öz imkanlarından Azərbaycan və Türkiyə vasitəsilə Avropaya tədarük edə biləcəyi çoxlu iri sənaye müəssisələri və məhsulların olduğu Ural və Sibir regionları üçün istifadə etməyi gözləyir. Beləliklə, ümumilikdə Rusiyanın Orta Dəhlizlə münasibəti balanslaşdırılmış və praqmatikdir.

Konkret olaraq Zəngəzur dəhlizindən danışırıqsa, onda bu marşrut Rusiya üçün də son dərəcə maraqlıdır, çünki Rusiya şirkətləri artıq Bakı-Tbilisi-Qars magistral yolundan fəal istifadə edirlər- metallurgiya məhsulları, taxıl və digər Rusiya ixracatları bu yolla daşınırdı. Beləliklə, Rusiya yükgöndərənləri Zəngəzur dəhlizinin açılmasına sevinəcəklər, çünki bu, əlavə maliyyə faydaları vəd edən yeni istiqamətdir.

**- Ermənistan TBNM-in bir hissəsi olmağa razılaşacaqmı?**

- Azərbaycan rəhbərliyi uzun müddətdir ki, ölkəni iki mühüm marşrutun: Şərq-Qərb və Şimal-Cənubun kəsişməsində fəaliyyət göstərən iri regional logistika qovşağı kimi formalaşdırıb. Azərbaycan öz ərazisindən tranzitlə bağlı istənilən layihədən faydalanır. TBNM isə Azərbaycan ərazisindən keçir, Bakı onun operatorlarından biridir.

Ermənistana gəlincə, açıqaydın görünür ki, öz ambisiyaları və Azərbaycana qarşı bəzi inciklikləri üzündən Zəngəzur dəhlizinin işə düşməsindən geri çəkilməklə çox şey itirir. Və Zəngəzur dəhlizi nəhayət Araz çayının digər sahilindən- İran üzərindən keçməklə fəaliyyət göstərsə, Ermənistan bu strateji imkanını həmişəlik itirə bilər.

**- Hazırda Çin üçün Orta Dəhliz nə dərəcədə maraqlıdır?**

- İlkin olaraq TBNM-ə Pekin tərəfindən moderatorluq edilirdi və əsasən Çin mallarının Mərkəzi Asiya, Cənubi Qafqaz və Türkiyə vasitəsilə Avropaya tədarükü marşrutu kimi düşünülürdü. Bununla belə, TBNM-də baş verən son tədbirlər zamanı bir detal nəzərə çarpır- nədənsə Transxəzər boyu Çin mallarının həcmində nəzərəçarpacaq artım yoxdur, iştirakçı ölkələrin ümid etdiyi o qədər də tranzit yük yoxdur. İndi TBNM Çindən daha çox Mərkəzi Asiya regionundan Avropaya malların çatdırılmasına yönəlib. Ola bilsin ki, fakt budur ki, Çinin özü Orta Dəhlizi öz yükləri ilə doldurmaqda hələ fəal deyil. Bunun izahı var: TBNM-nin maddi-texniki təminatı hələ tam tənzimlənməyib, A məntəqəsindən B məntəqəsinə yüklərin çatdırılması üçün həddən artıq çox sərhəd keçməlidir. Baxmayaraq ki, hazırda dəhlizin vahid operatorunun yaradılması üçün kompleks tədbirlər görülür, vahid tarif dərəcələri razılaşdırılır. Lakin bu proses hələ tamamlanmayıb. Beləliklə, düşünürəm ki, Çinin bu prosesə fəal qoşulması üçün daha bir neçə il lazım olacaq.

***Tərcümə - Elçin Bayramlı***

# AXCP repressiya mühitində idarə olunur



***Yeni qəbul edilən "Siyasi partiyalar haqqında qanun" siyasi partiyaların idarəetmədə çevikliyinin artırılmasına, fəaliyyətində müasir yeniliklərə uyğunlaşması, üzvlərinin mənafeyinin qorunması başlıca məsələlərdən hesab edilir. Artıq yeni qanuna görə, partiya sədrləri təkbaşına qərarlar verə bilməzlər. Eyni zamanda, sədrlər onlara qarşı narazılıq ifadə edən şəxsləri partiyadan xaric etmək kimi anormal addımlar atmaqdan məhrum edilirlər.***

Çox təəssüflər olsun ki, elə siyasi partiyalar var ki, qanunvericiliyə qarşı çıxırlar. Hələ də köhnə əyyamların idarəetməsinə üstünlük verir, müasir dövrün yeniliklərini qəbul etmək istəmirlər. Belə demək mümkünsə, müasir dövrün məqbul hesab olunan yeniliklərinə qarşı müqavimət göstərirlər. Bu da əksər hallarda aşağılarla yuxarılar arasında qarşıdurmalara gətirib çıxarır. Misal olaraq, AXCP daxilində sədrin ətrafında baş verən gərgin vəziyyəti göstərmək olar.

### AXCP-də Ə.Kərimliyə qarşı narazıların sayı artır

Əli Kərimlinin nizamnamənin tələblərini pozması və "Siyasi partiyalar haqqında qanun"a qarşı çıxması partiya daxilində ciddi narazılıqlar yaradıb. Məhz bu narazılıqların nəticəsidir ki, əksər cəbhəçilər 2023-cü il iyunun 24-də keçirilən qurultayın nəticələrini qəbul etmirlər. Çünki qurultayda Ə.Kərimli alternativsiz olaraq namizəd olmuş və seçki-filan olmadan partiya sədri seçilmişdir. Bunu narazı cəbhəçilər futbol meydançasında qapıçısı olmayan qapıya vurulan top kimi qiymətləndirirlər. Eyni zamanda, Ə.Kərimlinin tələbinə əsasən, psixoloji problemli şəxs kimi dəyərləndirilib AXCP-də məsxərə obyekti olan Nurəddin Məmmədli partiyanın Ali Məclisinin sədri təyin olundu. Əlavə olaraq Ə.Kərimlinin milli və dövlətçilik maraqlarına zidd mövqe sərgiləməsi və atdığı addımlarını xarici istəklərə uyğun atması AXCP-də partlamağa hazır vəziyyətdə olan problem yaradıb.

### Əli Kərimli cəbhəçilər üçün problemə çevrilib

Siyasi partiyalarla bağlı yeni qanunvericiliyə görə, Ədliyyə Nazirliyindən təkrar qeydiyyatdan keçən partiyalar 90 gün ərzində növbəti qurultayını keçirməlidir. Tələblərə bütün siyasi partiyalar riayət ediblər. Yeni qurultaylarını keçiriblər. Lakin Ə.Kərimli müxtəlif bəhanələr gətirməklə qurultay keçirməkdən yayınır. Gah deyir ki, şəhər rəhbərliyi onlara qurultayın keçirilməsi üçün yer ayırmır, gah da iddia edir ki, rayon təşkilatlarında qurultaya hazırlıq üzrə konfranslar başa çatmayıb: "AXCP -yə qurultay keçirməyə imkan vermədilər. Sabaha - dekabrın 2-nə planlaşdırdığımız qurultayda partiyamızın yeni proqramını qəbul edəcəkdik. Bu il iyunun 24-də keçirdiyimiz qurultayda qərar vermişdik ki, proqram üzərində iş başa çatdırılsın və 2023-cü ilin sonuna qədər partiyanın yeni proqramı qurultayın davamında qəbul edilsin. Biz proqram üzərində işi başa çatdırdıq. İnanıram ki, qurultayda qəbul ediləcəyi təqdirdə partiyamızın yeni proqramı ciddi müzakirələrə səbəb olacaq, ölkənin siyasi həyatında əsl hadisə olacaq".

Ə.Kərimli sosial şəbəkələrdə paylaşdığı statusunda əlavə edir ki, "Ədliyyə Nazirliyi də partiyamıza göndərdiyi 9 sentyabr tarixli məktubunda bizə xatırlatdı ki, siyasi partiyalar haqqında yeni qanuna görə partiyanın proqram və nizamnaməsində zəruri dəyişikliklər 90 gün ərzində həyata keçirilməlidir".

### Ola bilsin ki, nazirlik AXCP-nin qeydiyyatını ləğv etsin

Fakt budur ki, Ədliyyə Nazirliyi bütün siyasi partiyalara eyni gözdə baxır və birini digərindən üstün hesab edib fərqləndirmir. Lakin Ə.Kərimli bu cür xeyirxahlığı lazımi formada dəyərləndirmək hissindən uzaq olduğundan hay-küy salır. Təbii ki, adət etdiyi şivənlikdir. Ə.Kərimli digər siyasi partiyalar kimi onlayn formada AXCP-nin qurultayını keçirməklə problemi həll edə bilər. Sadəcə, daxili narazı şəxslərin sayı kifayət qədər çox olduğu üçün Ə.Kərimli qurultaya getməkdən çəkinir. Nəzərə almaq lazımdır ki, keçirildiyi iddia edilən 24 iyun qurultayının nəticələrinin tanınmaması ilə bağlı qurultay iştirakçıları Ədliyyə Nazirliyinə müraciət ediblər. Hazırda Ədliyyə Nazirliyində cəbhəçilərin müraciətləri araşdırılır. Təbii ki, Ə.Kərimli növbəti qurultayda əlavə problemlərlə üzləşəcəyi təqdirdə, AXCP-nin qeydiyyatı məsələsində ciddi əngəllər yaranacaq. Bunu Ə.Kərimli anlamasa da ətrafında olan imicmeykerləri ona başa salırlar. Bu səbəbdən də Ə.Kərimli müxtəlif bəhanələrlə vaxt qazanmağa və bu yolla narazı cəbhəçiləri neytrallaşdırmağa ümid bəsləyir. Vaxt isə gedir. Əgər qurultay keçirilməsə o zaman Ədliyyə Nazirliyi bunu qanunun tələbindən imtina kimi qəbul edib, hüquqi addımlar atacaq. Ola bilsin ki, nazirlik AXCP-nin qeydiyyatını ləğv etsin.

***İ.ƏLİYEV***

# Ermənistanın məqsədi nədir?









### Qərbin antitürk məqsədi fonunda proseslər dəyişir

Məlum olduğu kimi, ABŞ Azərbaycana dəstəyi kəsməsi üçün Türkiyəni təhdid və şantaj edib. Amerikalılar açıq-aşkar ermənipərəst mövqeləri ilə bir daha sübut ediblər ki, antitürk mövqeyi onların siyasi xəttidir. Mövzu ilə bağlı münasibətini açıqlayan politoloq Toğrul İsmayılın fikrincə, ABŞ bölgə siyasətini Ermənistan üzərindən qurmağa çalışır.

### Toğrul İsmayıl: "Bölgənin ən zəif ölkəsi Ermənistandır, apardığı siyasət nəticəsində kənar güclərə çox bağlıdır"

"Xatırladım ki, ABŞ-ın bölgədəki ən böyük səfirliyi Ermənistandadır. Halbuki Ermənistan Rusiyanın müttəfiqidir. Hədəf Ermənistanı – bölgədəki ən zəif halqanı ələ keçirib Azərbaycan və Türkiyəyə təzyiq göstərməkdir", - deyə o bildirib.

Onun sözlərinə görə, Ağ evdə bu zəif halqanı tutaraq münaqişəni davam etdirmək, bölgədəki problemləri nəzarətə götürmək və bura müdaxilə etmək məqsədi güdürlər: "Bölgənin ən zəif ölkəsi Ermənistandır, apardığı siyasət nəticəsində kənar güclərə çox bağlıdır. Ermənistan siyasilərinin ipləri ya Qərbin, ya Rusiyanın, ya da İranın əlindədir, onlar da bunun üzərindən manipulyasiya edirlər".

"Nikolun baş nazirliyi dövründə yeni növbədənkənar seçkilərə imkan verilə bilməz. Belə bir şey Ermənistana ağır zərbə olacaq".

### Artaq Zakaryan: "Belə bir şey Ermənistana ağır zərbə olacaq"

Bu arada onu da qeyd edək ki, Ermənistan anti-Rusiya siyasəti ilə vəziyyəti daha da gərginləşdirir. Belə ki, Ermənistan müdafiə nazirinin keçmiş müavini Artak Zakaryan ölkə mediasına verdiyi açıqlamasında Nikol Paşinyanı 2018-ci ildən bəri üç dəfə baş nazir seçildiyi erkən seçki keçirib və hər dəfə Ermənistan Azərbaycana məğlub olub: "Siyasi kulislərdə yenidən 2024-cü ildə erkən seçkilərin keçirilməsi mövzusu dolaşmağa başlayıb, bu da planlaşdırılan təhlükəli ssenaridən xəbər verir".

Onun sözlərinə görə, hər növbədənkənar seçkilərdən sonra Ermənistan Azərbaycan qarşısında ciddi itkilərə məruz qalır:"Nikolun ətrafı ictimai biganəlik, inzibati resurslardan istifadə və Qərbin gözü qarşısında yeni erkən seçkilərə getmək barədə düşünür. Məqsəd yeni müharibə nəticəsində ağrılı qərarlar qəbul etmək üçün legitimlik qazanmaq və parlament müxalifətini mütləq qərbpərəst və məğlubiyyətçi qüvvələrlə əvəzləməkdir".

"Hər üç ildən bir erkən seçki olacaq, nəticədə yeni uğursuzluqlar, itkilər və müharibələr olacaq. Nikolun baş nazirliyi dövründə yeni növbədənkənar seçkilərə icazə verilə bilməz. Belə bir şey Ermənistana ağır zərbə olacaq", - deyə sabiq rəsmi bildirib.

***Afət Tahirqızı***

ŞƏRH+AKTUAL

# Ana Torpaq təhlükədə: ərzaq böhranı qaçılmazdır

***5 dekabr Ümumdünya Torpaq Günü, insan həyatı üçün çox qiymətli və əvəzolunmaz olan torpağın günüdür. Torpağın insan sağlamlığı və təbii həyatın davamı üçün əhəmiyyətinə diqqəti cəlb etmək məqsədilə 2002-ci ildə Beynəlxalq Torpaq Elmləri İttifaqı tərəfindən və 2013-cü ildə Birləşmiş Millətlər Təşkilatının 68-ci Baş Assambleyasında Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) tələbi ilə dekabrın 5-i rəsmi olaraq Ümumdünya Torpaq Günü kimi qəbul edildi.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

### 70 il əvvəl torpaq daha bərəkətli idi

Təxminən üçdəbiri su, üçdəbiri minerallar və digər üzvi maddələrdən ibarət olan torpaq qida istehsalının əvəzedilməz təminatçılarından biridir. Buna görə də, davamlı qida təhlükəsizliyi və qidalanma problemləri olmasın deyə, həmçinin iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün sağlam torpaqlara ehtiyac var. Amma qeyri-düzgün istifadəsi torpaqda qida zəncirini pozur. Bu zəncir yaxşı idarə olunmazsa, məhsuldarlıq tədricən yox olur və ya qida dəyəri aşağı olan məhsullar istehsal olunur. Torpağın qida maddələrini itirməsi, qidalanmanı təhlükə altına salan ciddi torpaq deqradasiyası prosesidir. Bu vəziyyət bütün dünyada ərzaq təhlükəsizliyi və davamlılığı üçün ən kritik təhlükələrdən biri hesab olunur. Birləşmiş Millətlər Təşkilatının məlumatlarına görə, son 70 ildə qidada vitamin və qida maddələrinin səviyyəsi əhəmiyyətli dərəcədə azalıb.



Torpaqdan qeyri-sabit istifadə, qeyri-adekvat kənd təsərrüfatı fəaliyyətləri və torpağın üzvi maddələrinə zərər vuran nataraz məhsul yığımı və taxıl küləşinin yandırılması kimi bəzi düşüncəsiz hərəkətlər torpaqda biomüxtəlifliyin itirilməsi deməkdir və bu böyük təhlükə yaradır. Gündən-günə eroziya, səhralaşma, torpağın çirklənməsi, şoranlaşması, torpaqda üzvi maddələrin və mikroorqanizmlərin azalması kimi səbəblər torpaqların keyfiyyət göstəricilərinin aşağı düşməsinə səbəb olur. Bundan əlavə, həddindən artıq və şüursuz suvarma, lazımi miqdarda istifadə olunmayan pestisidlər, ağır və davamlı şumlama və həddindən artıq heyvan otarmaq kimi əkinçilik üsulları da torpaqlarımıza zərər verir. Bu səbəblə, torpaq ekosisteminə uyğun təcrübələri təşviq etmək, torpağın quruluşuna zərər verəcək və məhsuldarlığını azaldacaq hər hansı müdaxilələrin, məqsədsiz istifadələrin qarşısını almaq mütləqdir.

ANALİZ

### Qida, torpaqdan başlayır

Torpaqların deqradasiyası ilə yanaşı, kənd təsərrüfatına yararlı torpaqlarımız da getdikcə azalır. Bunun da səbəbləri aydındır. Səbəblər arasında əhalinin artımı, kənd yerlərindən şəhərlərə miqrasiya, kənd təsərrüfatı torpaqlarından keçən və torpaqları bölən magistral və dəmir yolları, onların ətrafında yaradılmış sənaye, turizm, faydalı qazıntılar axtarışı və çıxarılması kimi səbəblər kənd təsərrüfatı sahələrini yararsız hala salır. Doğrudur, ölkənin sənayesi, mədən sənayesi də inkişaf etməlidir, alkin bir sahədə inkişaf iqtisadiyyatın başqa sahəsinə zərər verməməlidir.

Pandemiya, qlobal böhranlar, su qıtlığı kənd təsərrüfatına yararlı torpaqlarımızdan daha yaxşı istifadə etməyin vacibliyini bir daha ortaya qoydu ki, bu da qida ehtiyaclarımızı ödəməyə imkan verir. 2022-ci il Ümumdünya Torpaq Günü şüarında, qidanın torpaqdan başladığının vurğulanması da insanları qida təhlükəsi barədə xəbərdar edir. Əgər hazırkı sürətlə kənd təsərrüfatına yararlı torpaqları itirməyə davam etsək, istehsalda itirməyə davam etsək, ərzaq istehsalına və təhlükəsizliyinə ciddi ziyan dəyəcək, ərzaq qiymətləri artacaq və milyonlarla insan potensial olaraq aclıq və yoxsulluğa sürüklənəcək. Əkinçilik sahələrinin yararsız hala düşməsinin və getdikcə həcminin azalmasının qarşısının alınması, torpaq və təbiət sevgisi ilə böyümüş nəsillərin sayəsində mümkün ola bilər. Necə deyərlər, zər qədrini zərgər bilər. Əgər torpqaların belə yararsız hala salınması prosesi davam etsə gələcək nəsillər üçün torpağın bir əhəmiyyəti, müqəddəsliyi qalmayacaq. İbtidai siniflərdə torpağa məhəbbət, təbiəti qoruma anlayışı təhsil proqramına daxil edilməli, övladlarımıza aşılanmalıdır ki, torpağı sevmək, həyatı, ətrafı, bütün canlıları qorumaq deməkdir.

### Nə etməli?

Kənd təsərrüfatında qabaqcıl texnologiyalardan istifadə edilməklə iş yükünün azaldılması, fermerlərin əkinçilik ərazilərini tərk etməməsi, yüksək məhsuldarlığa malik ölkələrlə rəqabətə girə bilmək üçün hər cür səy göstərilməlidir. Fermerlərə kənd təsərrüfatını dirçəltmək üçün maksimum imkan



kifa-
yət qədər nailiyyət əldə edə bilməsək, ərzaq böhranı qaçılmaz olacaq. Bundan əlavə, kənd təsərrüfatı torpaqlarımız kiçik, pərakəndə, dağınıq olduğundan və suvarma qurğuları hələ də lazımi səviyyədə olmadığından səmərəli istifadəni təmin etmək də mümkün deyil.

### Kəndləri betonlaşdırmamalı!

Magistral yolların layihələndirilməsi və şəhərlərin inkişafı, böyüdülməsi zamanı məhsuldar kənd təsərrüfatı torpaqlarını betonlaşdırmaq yerinə daha az münbit və kənd təsərrüfatına yararsız olan ərazilərdən istifadə edilməsinə diqqət yetirilməlidir. Suvarma üçün yararlı olan birinci dərəcəli kənd təsərrüfatı torpaqlarının inkişaf etməsi üçün, bu torpaqlarda sənaye obyektləri, şəhərlər salmamalıyıq. Bərəkətli kənd təsərrüfatı torpaqlarını turizm obyektləri və nəqliyyat üçün istifadə etməməliyik.

Əgər biz münbit torpaqlarımızı

yaradılmalı, problemləri həll edilməli, dövlət dəstəyi göstərilməlidir. Kənd təsərrüfatı siyasəti, kənd təsərrüfatı torpaqlarını qorumaq, kəndliləri öz torpaqlarında və kəndlərində saxlamaq, fermerə ailəsini dolandıracaq, həmçinin ölkə iqtisadiyyatına xeyir verəcək qədər gəlir təmin etmək üzərində qurulmalıdır.

Torpaq tarixən insanlar üçün dəyərli, qiymətli olub. Qiymətli olduğunu, onu anamız adlandırmaqla da ifadə edirik. Lakin biz anamız olan torpaqdan sui-istifadə edir, əcdadlarımızın bizə əmanət etdiyi sərvətin dəyərini bilmir, övladlarımıza miras qoyacağımız torpağı vəhşicəsinə istismar edirik. Əhalinin artması, sənayeləşmə, nəqliyyat və urbanizasiya ilə əlaqədar olaraq torpaq və su ehtiyatları hər il azalır. Torpağın deqradasiyası, qeyri-düzgün istifadəsi və ya hər hansı başqa səbəbdən itiriləcək bir qarış belə torpağımız yoxdur.

***Lalə Mehralı***

## AÇIQLANDI: Ölkəmizdə sahibkarlığa bu amillər mane olur!



"Vergi qanunvericiliyinə əsasən satılan malların mənbəyi bilinməlidir. Hesab edək ki, sizin köhnə bir əşyanız var, onu hər hansı bir şəxsə satmaq istəyirsiniz.

MÜNASİBƏT

Bu halda siz vergi ödəyicisi kimi həmin əşyanın sənədlərini təqdim etməlisiniz ki, riskli vergi ödəyicisi siyahısına düşməyəsiniz. Bu yaxınlarda iqtisadçılardan biri evdə söküntü işləri apardıqdan sonra, tullantı dəmir parçalarını dəmir yığımı ilə məşğul olan təşkilata təhvil vermək istəyirdi. Amma o vergi ödəyicisi olduğu üçün bunu edə bilmir. Səbəb odur ki, malın mənbəyi yoxdur". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Rauf Qarayev deyib.

Onun sözlərinə görə, elektron vergi hesab faktura verəcəyi halda həmin bu dəmir tullantıların sənədləri olmalıdır: "Nəticədə o, məcbur olur bu dəmir parçalarını gəlir götürmədən kimlərəsə versin. Ola bilər sual yaranır ki, bəs həmin şəxs vergi ödəyicisi olmayan qonşusuna gəlirlə şərik olaraq versəydi gəlir əldə etməzdimi? Edə bilərdi. Qonşu şəxsiyyət vəsiqəsini yığımla məşğul olan şəxslərə verərək onun adına alış aktı rəsmiləşdiriləcəkdir. Nəticədə həmin bu qonşu belə olan vergi orqanın hədəfinə düşəcək idi. Əldə etdiyi maldan vergi verməli olacaq idi. Bir müddət sonra isə onun adına VÖEN açılacaqdı. Qonşu isə gəlirdən vergi ödəyici üçün şəxsə vəsait ödəməyəcəkdi. Çünki artıq o dəmir tullantıların satışı olan şəxs kimi, vergi nəzarətində olacaq . Bundan əlavə şəxs vergi orqanına çağrılıb bununla bağlı sorğu - sual olunsa və məlum olsa ki, bu sadəcə vastiəçidir əslində bu mal başqasınındır onda təhlükə daha geniş miqyas alacaq".

"Təəssüflər olsun ki, qanunvericiliyimiz tam formada sahibkarın hüquqların nəzərə almır. Demək ki, biz sahibkarlığa dəstək olub inkişaf etdiririk bu tam düzgün fikir deyil. Adi Gömrük Komitəsinin sədri işdən azad olunub. Orada gözləyillər ki, yeni gələn şəxs ortada olan maneəni aradan qaldıracaq. Amma gələn şəxs qanunvericilik də, nəzərdə tutulan məhdudiyyətləri necə aradan qaldıra bilər? Demək fərdi şəxslərin dəyişməsi nəticəyə cüzi təsir edə bilər, tam olaraq təsir etmir. Bunun üçün qanunvericiliyə yenə də baxılmalıdır. Amma bundan istifadə edən amillərdə var. Misal üçün biz Ümumdünya Ticarət Təşkilatının üzvü olsaydıq məhsulların qiyməti artacaq idi, amma sahibkarlar istədiyi məhsulları maneəsiz bazardan ala biləcəkdi. Bu hüquq həm də digər ölkələrə də eyni hüququ verir. Amma burada rəqabət mühiti arta bilər. Bəlkə də yerli bazarın qorunması üçün təşkilata üzv olmurlar. Amma nəzərə almaq lazımdır ki, orada bizdən iqtisadiyyatı zəif ölkələr var", - deyə iqtisadçı sonda fikirlərini yekunlaşdırıb.

***Ləman Sərraf***

SON SƏHİFƏ

SƏS

5 dekabr
2023-cü il

# Xarici ölkədə təhsil alanların diplomları hansı hallarda tanınmır?

***“Xarici ölkədə təhsil alıb, diplomunu tanınması, daha dəqiq desək, ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) işlərini ölkəmizdə Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) həyata keçirir”. Bunu SİA-ya açıqlamasında təhsil eksperti Elnur Hacıyev deyib. Ekspertin sözlərinə görə, diplomun tanınması üçün vətəndaş TKTA rəsmi saytında Elektron Ərizə Sistemində qediyyatdan keçib, ərizə hissəsi doldurmalı, tələb olunan sənədləri təqdim edilməlidir: “Məlumat üçün bildirim ki, kvalifikasiyaların tanınması 2 istiqamətdə həyata keçirilir:***



**EKSPERT AÇIQLADI**



1. Qeyri-formal və informal təhsilin tanınması
2. Xarici təhsil sənədlərinin tanınması

Xarici təhsil sənədlərinin tanınması üçün aparılan ekspertizanın yekununda müsbət rəylə qiymətləndirilmiş ərizəçilərə, müvafiq olaraq elektron şəhadətnamə təqdim olunur. Ekspertizadan keçə bilməyən diplomların mənfi rəy verilir. Yəni diplom tanınmır.

E.Hacıyev bildirib ki, diplomun tanınmamasının bir çox səbəbləri ola bilir: ”Dövlət Sərhəd Xidmətindən alınan məlumatlar təhsil müddəti dövründə tələbənin təhsil aldığı ölkədə olmadığını təsdiqləyərsə, leqallaşma aparılmayıbsa, diplom tanına bilməz. Burada bir çox başqa səbəblər də ola bilir. Əlavə olaraq qeyd edim ki, çox vaxt valideynlərin övladının təhsil alacağı xarici ölkə və təhsil alacağı Universitet haqqında yetərli məlumatı olmur. Yaxşı olar ki, abituriyentlər seçdiyi ölkə və Universitetin gələcəkdə alacağı diplomunun TKTA-ya tanınıb, tanınmaması barədə sorğu göndərsin. Ondan sonra xarici Universitetdə təhsil almağa başlasın. Bu sahədə valideynlərin və abituriyentlər arasında maarifləndirmə işinin aparılması diplomların tanınmaması riskini xeyli azalda bilər”.

***Rəşid Qarayev***

# XƏBƏRDARLIQ: qar yağacaq, temperatur 5-8 dərəcə aşağı enəcək

***Bakıda və Abşeron yarımadasında dekabrın 5-i səhərdən 6-dək şimal-qərb küləyinin 15-20 m/s, arabir 23-28 m/s, gündüz yarımadanın bəzi yerlərində arabir 30-32 m/s-dək güclənəcəyi gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, dekabrın 6-sı axşamdan 7-si axşamadək arabir yağış yağacağı, 7-də yarımadanın bəzi yerlərində intensiv olacağı ehtimalı var.***



Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 3-5 dərəcə aşağı enəcək. Azərbaycanın rayonlarında dekabrın 5-i axşamdan 6-sı gündüzədək əsasən şərq rayonlarında, 6-sı axşamdan 7-si axşamadək isə əksər rayonlarda arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dağlıq rayonlarda qar yağacağı ehtimalı var.

Dekabrın 5-dən 6-sı səhərədək qərb küləyinin 15-20 m/s, ayrı-ayrı yerlərdə arabir 25-30 m/s-dək güclənəcəyi gözlənilir. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 5-8 dərəcə aşağı enəcək.


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Gözlərdə yaranan zəifliyin səbəbi nərdir?



**HƏKİMLƏR AÇIQLADI**

***Günümüzdə kompüter və mobil cihazlardan hədsiz dərəcədə çox istifadə edilməsi göz xəstəliklərinin daha da artmasına səbəb olub. "Göz zəifliyi müxtəlif səbəblərdən baş verə bilər.***

Refraksiyon, şəkərli diabet, anadangəlmə kataraktalar, qaloucoma, uveit və s.” Bu sözləri SİA-ya açıqlamasında oftalmoloq Qurban İsmayılov bildirib. ”İnsanlar arasında son zamanlar göz xəstəliklərinin artması ilə bağlı fikirlər dolaşır. Düşünürəm ki, xəstəliklər bütün dövrlərdə eyni səviyyədə olub. Hazırda xəstəlik sayının artması bütün dünyada diaqnostikanın müasir səviyyədə aparıla biləcək tibbi avadanlıqların olması ilə əlaqəlidir. Telefon və kompüterdən istifadənin çox olması cavanlarda akomadasiyanın spazmı və bütün adamlarda quru göz sindiromu əmələ gətirə bilər. Kitab oxumaq, kompüterdə elmlə məşğul olmaq göz xəstəliyi yarada bilməz”.

Digər müsahib cərrah, oftalmoloq Humay Əlizadə qeyd edir ki: ”Son zamanlar kompüter, telefon, ümumiyyətlə, texnologiyanın inkişafı bizim yaxın məsafədə daha çox iş görməmizə səbəb olur. Gözün yaxın məsafədə işi artdığı üçün akkomodasiyanın spazmı yaranır və bu miopiyanın ( uzaqdan zəifgörmənin ) inkişafını artırır. Bundan əlavə ətraf mühit kirliliyi, ozon təbəqənin kifayət qədər ultrabənövşəyi şüalarin qarşısını kəsə bilməməsi bu şüaların gözə zərərli təsirini artırır. Eyni zamanda kompüter şüaları müxtəlif cihazlardan cıxan şüalar da gözə zərərlidir.

Bunlardan qorunmaq üçün kompüterdən çıxan göy işıqdan qoruyucu Blue blok şüşəli eynəklərdən, ultrabənövşəyi şüalardan, parlaq işıqdan qoruyan UV blok, polyarizəedici filtrləri olan günəş eynəkləri istifadə etmək məsləhət görülür”.

***Çinarə Muradova***

## ELAN

**29.12.2012- ci il tarixində,1112-Q43-3129 nömrədə,Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyat olunmuş, “Humayun” sosial problemlərin həllinə kömək ictimai birliyinin Dövlət Qeydiyyatı haqqında Şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**